

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 30 (924) ▪ 15 avqust 2018 | www.vergiler.az | Qiyməti: 60 qəp.

# Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında iştirak etmək üçün Qazaxıstanın Aktau şəhərinə səfərə gəlib. Aktau şəhərinin beynəlxalq hava limanında dövlətimizin başçısını Qazaxıstanın energetika naziri Kanat Bozumbayev və digər rəsmi şəxslər qarşılayıblar.

Avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə toplantısında iştirak edib. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşılayıb. Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısını açıq elan edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev «Xəzər günü» ilə eyni vaxtda keçirilən Sammitin əhəmiyyətindən danışıb.

Zirvə toplantısında çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir. «Ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir. Azərbaycan Xəzəryanı ölkələr arasında əməkdaşlığın hüquqi bazasının yaradılmasında fəal iştirak edib. 2010-cu ildə Xəzəryanı ölkələrin dövlət başçılarının Bakıda keçirilmiş III Zirvə Toplantısı ölkələrimiz arasında sıx əməkdaşlığın möhkəmləndirilməsi işinə mühüm töhfəsini vermişdir. Həmin Zirvə Toplantısında regionda təhlükəsizliyin və sabitliyin qorunub saxlanması baxımından mühüm əhəmiyyət daşıyan «Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş» imzalanmışdır. Orada ilk dəfə konseptual olaraq suverenlik və balıqçılıq zonaları yüksək səviyyədə razılaşdırılmışdır. Sammitdə, həmçinin Xəzəryanı dövlətlərin Xəzər dənizində əməkdaşlığının əsas prinsipləri razılaşdırılmışdır. Bu prinsiplər dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörməti, Xəzərin sülh, mehriban qonşuluq və dostluq zonasına çevrilməsini ehtiva edir. Qeyd edilməlidir ki, həmin prinsiplər bu gün imzalanacaq «Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya»da da öz əksini tapmışdır. Konvensiya fundamental normativ sənəd kimi Xəzər dənizinin ümumi hüquqi rejimini müəyyən edir. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi onun dibinin və səthinin beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq tərəflər arasında sektorlara bölünməsi prosesinin başa çatdırılmasına kömək edəcəkdir».

Dövlətimizin başçısı Azərbaycanın Xəzərdə 260-dan çox gəmisi olan donanmaya malik olduğunu, 2013-cü ildə ölkəmizdə ən müasir texnoloji standartlara cavab verən gəmiqayırma zavodunun istifadəyə verildiyini və cari ilin may ayında Azərbaycanda Ələt Beynəlxalq Dəniz Ticarət Limanının inşasının başa çatdırıldığını diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan Xəzəryanı ölkələrin sərhəd və gömrük xidmətləri arasında əməkdaşlığın möhkəmlənməsi işində də fəal rol oynayır, qaçaqmalçılıq, narkotrafik və digər qanunsuz fəaliyyətlərlə mübarizədə fəal və səmərəli iş aparır.

Dövlətimizin başçısı bildirib ki, Sammitdə qəbul edilən qərarlar Xəzəryanı ölkələr arasında əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi, Xəzər regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək.

Sammitdə çıxış edən İran Prezidenti Həsən Ruhani, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Zirvə görüşünün əhəmiyyətinə toxunaraq onun Xəzəryanı ölkələr arasında əməkdaşlığın daha da inkişafına güclü təkan verəcəyini, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin dərinləşməsinə xidmət edəcəyini bildiriblər.




### Xəzər dənizində əməkdaşlığının əsas prinsipləri dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörməti, Xəzərin sülh, mehriban qonşuluq və dostluq zonasına çevrilməsini ehtiva edir

Avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında sənədlərin imzalanması mərasimi olub. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzalayıblar. Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər - Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol, Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş, Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Saziş, Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş və sərhəd xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokol imzalanıb.

Zirvə toplantısında sənədlərin imzalanması mərasimindən sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Sammitin qarşılıqlı anlaşma və mehriban şəraitdə keçdiyini deyərək Konvensiyanın imzalanmasını görülən işin kulminasiyası adlandırıb. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış edib. Prezident İlham Əliyev bildirib ki, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması tarixi əhəmiyyətli sənəddir. «Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi bu sənədin imzalanmasına öz töhfəsini verib. Konvensiya imzalanana qədər də bizim ikitərəfli və çoxtərəfli münasibətlərimiz kimi Xəzər təhlükəsizlik, sabitlik dənizi və Xəzərdə sabitliyin və təhlükəsizliyin qarantı idi. Xəzəryanı ölkələr arasında yüksək səviyyədə əməkdaşlıq, etimad və qarşılıqlı fəaliyyət mövcuddur və bu da təhlükəsizliyin və sabitliyin başlıca qarantıdır. Bu gün Xəzərdə təhlükəsizlik və sabitlik bizim imzaladığımız Konvensiya ilə müəyyən olunur. Təbii ki, bu, Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, iqtisadi, nəqliyyat xarakterli məsələlərin, xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına kömək edəcək məsələlərin həlli üçün geniş perspektivlər açır. Azərbaycan Xəzərdə ekoloji vəziyyətin yaxşılaşmasına fəal və böyük töhfə verir. Hökumətimizin gördüyü tədbirlər xüsusən neft-qaz əməliyyatlarının həyata keçirildiyi zaman Xəzər dənizinin çirklənməsinin qarşısını almağa hədəflənib. Mən artıq Sammit zamanı bu barədə danışmışam və bir daha demək istəyirəm ki, Azərbaycanın müstəqillik dövründə həyata keçirdiyi bütün neft-qaz əməliyyatları İSO beynəlxalq standartlarına uyğundur».

Azərbaycan Prezidenti bildirib ki, 2019-cu ildə Xəzərdə neft çıxarılmasının 70 illiyi qeyd edəcəyik: «Bu, dəniz yataqlarında neftin ilk hasilatı idi. Əlbəttə, əvvəlki illərdə Xəzərin neft-qaz ehtiyatlarının istismarı zamanı Xəzərin ekologiyasına müəyyən dərəcədə ziyan dəyib. Lakin bu gün ölkəmiz mümkün olan hər şeyi edir ki, Xəzər ekoloji inkişaf, ekoloji sabitlik zonasına çevrilsin. Azərbaycan nəqliyyat infrastrukturuna fəal surətdə sərmayə yatırır və reallaşdırdığımız layihələr bu gün bizə Xəzəri mühüm nəqliyyat arteriyası kimi nəzərdən keçirməyə imkan verir. Azərbaycanın Qazaxıstana və Türkmənistana öz tranzit xidmətlərini təqdim etdiyi Şərq-Qərb dəhlizi, Azərbaycandan keçməklə İran və Rusiya arasında tranzitin reallaşdırıldığı Şimal-Cənub dəhlizi - bunlar iqtisadi əməkdaşlığı möhkəmləndirən, yeni iş yerləri yaradan, bizi bir-birimizə yaxınlaşdıran, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə şərait yaradan layihələrdir.

Bu il İranla Rusiya arasında Şimal-Cənub dəhlizi üzrə yükdaşımaları 100 dəfədən çox artıb. Azərbaycan ərazisində bu istiqamətdə bütün işlər başa çatıb və biz yük axınının artmasını gözləyirik. Eynilə, Azərbaycan Avropa və Asiya dəmir yollarını birləşdirən layihəni həyata keçirib və bu dəhlizlə də yük axınının xeyli artmasını gözləyirik. Bütün bunlar ölkələrimiz üçün əlavə imkanlardır. Bu, iqtisadi rifahdır, bu, ölkələrimizin dünya miqyaslı mühüm tranzit qovşağa çevrilməsidir».

Dövlətimizin başçısı qeyd edib ki, imzalanma mərasimi qarşımızda yeni perspektivlər açır: «Biz əməkdaşlığı davam etdirmək niyyətindəyik. Azərbaycan bütün Xəzəryanı ölkələrlə çox sıx etimada, qarşılıqlı, bərabərhüquqlu maraqların nəzərə alınmasına, ərazi bütövlüyünə hörmətə və bütün ölkələrin suverenliyinə əsaslanan münasibətlərə malikdir».

İran Prezidenti Həsən Ruhani, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Xəzərin hüquqi statusuna dair Konvensiyanın imzalanmasının əhəmiyyətinə toxunaraq onun ölkələrimiz arasında gələcək əməkdaşlığa daha mühüm töhfələr verəcəyini bildiriblər.

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 12-də Aktauda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevlə görüşüb. Nursultan Nazarbayev ölkəsində nəqliyyat sahəsində görülən işlərdən danışaraq Asiyadan Avropaya yüklərin tranziti ilə bağlı Azərbaycan və Qazaxıstan arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyev isə iki ölkənin bir-birinin tranzit imkanlarından istifadə etməsi iqtisadi və siyasi nöqteyi-nəzərdən çox səmərəli olacağını qeyd edib.

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə də görüşüb. Görüşdə Azərbaycan ilə İran arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Ölkələrimizin həyata keçirdiyi birgə iqtisadi layihələrin yaxşı nəticələr verdiyi və enerji, nəqliyyat və infrastruktur sahələrində, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizi üzrə əməkdaşlığın uğurla həyata keçirildiyi qeyd olunub. Prezidentlər Xəzəryanı dövlətlərin dövlət başçılarının Qazaxıstanda keçirilən V Zirvə toplantısının və Xəzərin hüquqi statusu haqqında imzalanan Konvensiyanın əhəmiyyətini vurğulayaraq onun gələcəkdə Xəzəryanı ölkələr arasında əməkdaşlığı daha da möhkəmləndirəcəyinə əminliklərini ifadə ediblər.

Avqustun 12-də Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısından sonra Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Aktau şəhərinin dəniz sahilində gəzintiyə çıxıblar. Gəzintidən sonra prezidentlər körpə nərə balıqlarının Xəzər dənizinə buraxılması mərasimində iştirak ediblər.

Avqustun 12-də Aktauda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin adından Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısının iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

## Rəsmi xronika

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da ABŞ Konqresinin Nümayəndələr Palatasının kəşfiyyat üzrə daimi xüsusi komitəsinin sədri Devin Nunesin başçılıq etdiyi və komitənin üzvü Rik Kravfordun daxil olduğu nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi bildirilib, ABŞ Konqresinin Nümayəndələr Palatasının kəşfiyyat üzrə daimi xüsusi komitəsinin sədri Devin Nunesin Azərbaycana səfərinin əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyini vurğulayıb. Söhbət zamanı Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlara fəal dəstək verdiyi qeyd edilib. Görüşdə regional təhlükəsizlik, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.
- Azərbaycan Prezidenti İlham Əliyev avqustun 8-də Bəhreyn Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ebrahim Yusuf Al-Abdullanın etimadnaməsini qəbul edib. Azərbaycanın dövlət başçısı səfirlə söhbət zamanı iki ölkə arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirib. Hər iki ölkə sivilizasiyalararası dialoqun təşviqi, sülh və əmin-amanlıq şəraitində yaşaması üçün bütün dünyada səylər göstərir. Səfir bildirib ki, Azərbaycan postsovet məkanında, Bəhreyn isə Yaxın Şərqdə aparıcı maliyyə mərkəzlərindən biridir və bu, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı zəmin yaradır.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Şri-Lanka Demokratik Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Şərif Anisin etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Şri-Lanka arasında çox yaxşı siyasi əlaqələrin mövcud olduğunu, iqtisadi sahədə əlaqələrin inkişafının önəmini qeyd edib. Məhəmməd Şərif Anis isə ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsinin, qarşılıqlı investisiya sahəsində imkanların araşdırılmasının zəruriliyini qeyd edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Hen Cunun etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı gələcək illərdə ölkələrimiz arasında müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsinin və əməkdaşlığın möhkəmləndirilməsinin zəruriliyini qeyd edib.

Devizimiz operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıqdır — səh. 3

İslahatlar iqtisadi artımı sürətləndirir — səh. 3

Avqustun 15-i — torpaq vergisinin ödənilməsinin son müddəti — səh. 4

Elektron ödənişlərdən vergi tutulması — səh. 5

# Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycana rəsmi səfər edib



Tacikistan və Azərbaycan beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir və bu dəstək ölkələrimiz üçün çox əhəmiyyətlidir

Avqustun 10-da Azərbaycan Respublikasına rəsmi səfər edib. Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşılayıb. Avqustun 10-da rəsmi qarşılanma mərasimi başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olub. Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bu səfər ölkələrimiz arasında qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək. Tacikistan Prezidenti isə bildirib ki, biz dost Azərbaycanın uğurlarına, sosial-iqtisadi inkişafına, beynəlxalq arenada uğurlarına səmimi qəlbdən sevinirik. Tacikistan Azərbaycanla çoxşaxəli əməkdaşlığa böyük əhəmiyyət verir. Tacikistan-Azərbaycan qarşılıqlı əlaqələrinin bütün formatlarda dinamik inkişafı sevindiricidir.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Prezidentlər görüşdə çıxış ediblər. Prezident İlham Əliyev qeyd edib ki, bu səfər ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin inkişafına yeni impuls verəcək: «Biz beynəlxalq arenada çox fəal qarşılıqlı fəaliyyət göstəririk. Tacikistan və Azərbaycan iştirak etdiyimiz beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir və bu dəstək ölkələrimiz üçün çox əhəmiyyətlidir. Biz bu gün qarşılıqlı iqtisadi fəaliyyəti də müzakirə edəcəyik».

Tacikistan Prezidenti Emoməli Rəhmon xalqlarımız arasında tarixi-mədəni birliyə və çoxəsrlik ənənələrə əsaslanan dostluq əlaqələrini yüksək dəyərləndirib və bu gün Tacikistan-Azərbaycan münasibətlərinin getdikcə inkişaf etdiyini diqqətə çatdırıb. «Biz qarşılıqlı maraq doğuran əməkdaşlığımızın bütün istiqamətləri üzrə məhsuldar fəaliyyətimizin genişləndirilməsində və dərinləşdirilməsində maraqlıyıq. Əminəm ki, bu gün əldə edəcəyimiz razılaşmalar çoxşaxəli tərəfdaşlığımızı yeni məzmunla zənginləşdirəcək, daha yüksək və keyfiyyətli səviyyəyə çıxaracaq. Azərbaycan Qafqaz regionunda bizim üçün mühüm tərəfdaşdır. Məmnuniyyətlə Tacikistan-Azərbaycan münasibətlərinin uğurla genişləndirilməsi meylini qeyd etmək istərdim. Dostluq və əməkdaşlıq barədə müqaviləyə əsaslanaraq ötən illər ərzində biz münasibətlərimizin sanballı müqavilə-hüquq bazasını formalaşdırmışıq. Bu baza bu gün demək olar ki, əməkdaşlığın bütün sahələrini əhatə edir. Bu gün ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə yönələn ikitərəfli sənədlərin yeni paketi imzalanacaq».

Geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dövlət başçılarının Birgə Bəyanatını imzalayıblar. Hər iki ölkənin müvafiq nazirlik və təşkilatları arasında müxtəlif iqtisadi və humanitar sahələri əhatə edən sənədlər də imzalanıb.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər. Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Tacikistan Prezidentinin Azərbaycana səfəri ölkələrimizin ikitərəfli münasibətlərində mühüm hadisədir. «Əminəm ki, səfər çox yaxşı nəticələr verəcək. Bu nəticələr ölkələrimiz arasında qarşılıqlı sosial-iqtisadi fəaliyyətdə mütləq özünü göstərəcək və xalqlarımızı daha da yaxınlaşdıracaq. Bu gün bir çox mühüm sənədlər imzalanıb. Həmin sənədlər bizim münasibətlərimiz üçün mühüm hüquqi baza yaradıb və bu sənədlər nəticəyə hədəflənib. Düşünürəm ki, əldə etdiyimiz razılaşmaların uğurlu icrası əmtəə dövriyyəsinin xeyli artmasına və bir çox istiqamətlər üzrə işimizin fəallaşmasına gətirib çıxaracaq».

Dövlətimizin başçısı Tacikistana Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı mövqeyinə görə də minnətdarlığını bildirib. Qeyd edib ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, ATƏT-in qərarlarına uyğun şəkildə həll olunmalıdır: «Bütün Azərbaycan xalqı adından belə ədalətli mövqeyə görə minnətdarlıq bildirmək istərdim. Bu, həm dost mövqeyidir, həm də ədalətli mövqedir. Çünki uzun illərdir ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri Ermənistanın işğalı altındadır və Ermənistan BMT-nin Təhlükəsizlik Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər bu kimi aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrini yerinə yetirmir. Vaxtilə onların hamısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar və qətnamələr qəbul ediblər və bu zaman belə bir nöqteyi-nəzərdən çıxış ediblər ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır».

Tacikistan Prezidenti Emoməli Rəhmon bəyanatla çıxış edərək Tacikistan-Azərbaycan əməkdaşlığının gələcəkdə də inkişafında və möhkəmlənməsində maraqlı olduqlarını xatırladıb. «Biz o fikirdə həmrəy olduq ki, komissiya çərçivəsində əldə olunmuş razılaşmaların dəqiq yerinə yetirilməsi və imzalanan dövlətlərarası sənədlərin reallaşdırılması bizim ticari-iqtisadi münasibətlərimizin gələcək inkişafının amilidir. Biz hesab edirik ki, bugünkü razılaşmalar sənaye, energetika, nəqliyyat, aqrar sektor və turizm kimi iqtisadiyyatın baza sektorlarında uzunmüddətli əməkdaşlıq formalarının inkişafına təkan verəcək. Belə fikir bildirildi ki, ikitərəfli əmtəə dövriyyəsini əhəmiyyətli dərəcədə artırmaq və əmtəə nomenklaturası strukturunun təkmilləşdirilməsi üçün qarşılıqlı maraq doğuran bütün istiqamətlərdə ikitərəfli əməkdaşlığı fəallaşdırmaq və yaxşılaş-

# Prezident İlham Əliyev Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa olunan Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib. Dövlətimizin başçısı Mərkəzin fəaliyyəti ilə tanış olub. Bildirilib ki, mərkəzin inşasına 2017-ci ilin aprelində başlanılıb. Tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Bu mərkəz vasitəsilə Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı planlaşdırılır. Abşeron Logistika Mərkəzi bütün xidmətləri təklif etməklə vaxta qənaəti və xərclərin azalmasını təmin edir.

Müəssisə ilk mərhələdə 28 hektar ərazidə dəmir yolu və avtomobil yollarının qarşılıqlı əlaqəsini təmin edərək logistika xidməti göstərməyə başlayacaq. İkinci mərhələdə isə 35 hektar ərazi üçün layihə hazırlanıb. Bu mərhələnin yekunlaşmasından sonra Logistika Mərkəzi həm Azərbaycanın, həm də Qafqazın coğrafi logistik inkişafına, həmçinin ölkəmizin iqtisadi tərəqqisinə böyük töhfə verəcək. Mərkəz vahid gömrük məntəqəsi kimi qəbul olunub. İdxal, ixrac və tranzit gömrük əməliyyatları ərazidə yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir.

Logistik xidmət tərəfdaşlarının əməkdaşlığı məhsuldarlığı və səmərəliliyi daha da artıracaq. Mərkəzin yaradılmasında əsas məqsəd ən müasir üsullarla müştərilərin istəklərini təmin etməkdir. Bunun üçün bütün xidmətlər «vahid pəncərə» sistemi ilə bir nöqtədən təmin olunur. Müəssisədə ümumilikdə 350 nəfər işlə təmin edilib. Logistika Mərkəzində 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və ən müasir texnikalar xidmət göstərəcək. Mərkəzdə yük maşınları üçün 200 yerlik park yaradılıb, dəmir yolu körpüsü və avtomobil yolları inşa edilib. Burada üçmərtəbəli gömrük, inzibati və müştəri xidmətləri binası, həmçinin giriş-çıxışa nəzarət, texniki, ictimai obyekt binaları inşa edilib. Mərkəzdə 6-sı qatar qəbulu, 2-si konteyner, 2-si açıq yük və 2-si anbar sahələrinə boşaltma və yükləmə xətləri olmaqla, ümumilikdə 12 kilometr uzunluğunda dəmir yolu xətti var. Müəssisədə illik yükaşırma qabiliyyəti 3,5 milyon ton olan terminal vasitəsilə idxal, ixrac və tranzit yüklərin daşınması da icra olunacaq.

Mərkəzin ərazisi ticarət, logistika və sənaye zonalarının kəsişməsində və nəqliyyat şəbəkələrinin mərkəzində yerləşir. Bu müəssisənin «Meyvəli» MMC-yə, Bakı Baş Gömrük İdarəsinə, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, «Sədərək» və «Binə» ticarət mərkəzlərinə, həmçinin digər biznes strukturlarına yaxınlıqda yaradılması onun iqtisadi əhəmiyyətini daha da artırır. Təxmini hesablamalara görə, gün ərzində 750-800 yük maşını şəhər mərkəzində yerləşən stansiyalardan boşalan yükləri şəhərdaxili anbar və tikinti materialları bazarlarına daşıyır. Bu yüklərin şəhərdəki məntəqələrə, inşaat materialları mağazalarına və bazalarına çatdırılması paytaxtda nəqliyyatın hərəkətində sıxlıq və digər problemlər yaradır. Logistika Mərkəzinin yaradılması bu problemi həll etməklə yanaşı, həm də Bakının ekoloji durumunu daha da sağlamlaşdıracaq. Belə ki, Bakıətrafı dəmir yolu stansiyalarından Abşeron Logistika Mərkəzinə yönəldiləcək yüklərin həcminin 0,8 milyon ton olacağı ehtimal edilir. Beləliklə də Bakıya gələn 2 milyon ton yük şəhərdən kənarda yerləşən Abşeron Logistika Mərkəzinə yönəldiləcək. Bu da orta hesabla 125 min yük avtomobili deməkdir.

# Mehriban Əliyevanın gördüyü işləri UNESCO-da xoşməramlı səfirlər üçün örnək hesab edirlər

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın BMT-nin humanitar sahə üzrə ixtisaslaşmış təşkilatı olan UNESCO-nun xoşməramlı səfiri seçilməsindən 14 il ötür. O, bu ada Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki davamlı səylərinə, dünya mədəniyyətlərinin mübadiləsi istiqamətində xidmətlərinə, həmçinin UNESCO-nun ideyalarına sadiqliyinə görə layiq görülüb. Beləliklə, 2004-cü il avqustun 13-dən etibarən Azərbaycan ilə UNESCO arasında əməkdaşlıq yeni eraya daxil olub.

Mehriban xanım Əliyeva Azərbaycanı dünyada, beynəlxalq aləmdə sidq-ürəkdən təbliğ edir və şərəfləndirir. Siyasəti mərhəmət və şəfqətlə çuğlaşdıran, hər bir sahədə xoş məramı ilə fərqlənən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti mənsub olduğu xalqa sevgidən qaynaqlanır. O, ilk növbədə, Vətəninə xidmət edir, onun tərəqqisinə çalışır, gələcəyini düşünür. 2004-cü ilin mayından ulu öndər Heydər Əliyevin adını daşıyan Fonda rəhbərlik edən Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən irimiqyaslı layihələr həm ölkə daxilində, həm də ondan kənarda böyük rəğbətlə qarşılanır. Bu layihələr milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılmasına, sivilizasiyalararası dialoqun təşviqinə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına istiqamətlənib.

Ölkəmizin inkişaf strategiyasının reallaşdırılmasında Mehriban Əliyevanın müstəsna rolu var. Digər tərəfdən o, Birinci vitse-prezident kimi keçirdiyi ilk müşavirəni cəmiyyətin ən həssas təbəqəsindən olan qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə həsr edib. Daha sonra Azərbaycan Ordusunun 2016-cı il Aprel döyüşləri zamanı yaralanmış bir qrup əsgər və zabiti ilə görüşüb. Sağlamlığını itirmiş həmin hərbi qulluqçular onun tapşırığı ilə yüksək texnologiyalı protezlərlə təmin olunublar.

Mehriban xanım Əliyevanın fəaliyyəti yalnız milli-mənəvi dəyərlərin, mənəvi və qeyri-maddi irsin dünya miqyasında təbliğinə deyil, eyni zamanda, sivil dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəlib.

«Sizi xoşməramlı səfirlər sırasında görmək bizim üçün - UNESCO üçün şərəfdir. Sizin nailiyyətlərinizin miqyasını bir adla əhatə etmək çətindir. Siz UNESCO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız» - Mehriban xanım Əliyevaya ünvanlanmış bu sözləri təşkilatın sabiq baş direktoru İrina Bokova deyib. Doğrudan da Azərbaycanın birinci xanımının ölkəmizin UNESCO ilə münasibətlərinin inkişafında və möhkəmləndirilməsində müstəsna xidmətləri var. Onun təşəbbüsü və dəstəyi ilə UNESCO ilə Azərbaycan arasında elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi üçün Bakıda bir sıra beynəlxalq tədbirlər keçirilib. Xoşməramlı səfir kimi xeyriyyəçilik fəaliyyəti çox keçmədən Azərbaycan sərhədlərini aşaraq, bir çox xarici ölkələri də əhatə edib. Təsadüfi deyil ki, bu humanistlik və həyata keçirilən qlobal layihələr təkcə Azərbaycan xalqı tərəfindən deyil, bütün dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin UNESCO çərçivəsində qeyd edilməsi də bu qurumla əlaqələrin yüksək səviyyəsindən xəbər verir. Füzulinin 500 illik, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik, «Leyli və Məcnun» operasının ilk tamaşasının, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin 100 illik yubileyləri, habelə bu qəbildən olan digər tədbirlər UNESCO çərçivəsində böyük təntənə ilə qeyd edilib. Mehriban xanım Əliyevanın UNESCO-nun xoşməramlı səfirlərinin toplantılarında, qurumun mötəbər tədbirlərində iştirakı, keçirdiyi görüşlər, dünyada təhsilin vəziyyəti və digər aktual mövzularda çıxışları böyük maraqla qarşılanır. O, həmin tədbirlərdə diqqəti həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəldir, işğal altında olan ərazilərimizdə tarixi-mədəni abidələrimizin məhv edilməsindən narahatlığını bildirir, bir sözlə, bu mötəbər beynəlxalq tribunadan Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün məharətlə istifadə edir.

Azərbaycan muğamının, Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun, İçərişəhərin, Qız qalasının, Şirvanşahlar Sarayı Kompleksinin UNESCO-nun dünya mədəni irs siyahısına, aşıq, xalçaçılıq, tar ifaçılığı və hazırlanması sənətlərinin, Novruz bayramının, dolma, lavaş və kəlağayının, Lahıc misgərlik sənətinin, Çövkən oyununun UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə reprezentativ siyahısına daxil edilməsi məhz Mehriban Əliyevanın aramsız səylərinin nəticəsidir.

UNESCO-nun mənzil qərargahında Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə gerçəkləşən mədəni tədbirlər, Azərbaycanın inkişafı, tarixi, mədəniyyəti ilə bağlı təqdimatlar, mədəni abidələrimiz, milli mətbəximiz barədə bir-birindən maraqlı nəşrlər, kataloqlar da ölkəmizin tanıdılması baxımından böyük əhəmiyyətə malikdir. Azərbaycanın tanınmış incəsənət ustaları, eləcə də gənc istedadları UNESCO-nun iqamətgahında möhtəşəm çıxışları ilə mədəniyyətimizin zənginliyini bir daha nümayiş etdirirlər.

Azərbaycanın birinci xanımının UNESCO-nun xoşməramlı səfirləri arasında da çox böyük nüfuzu var. Qurumda daim nəcib təşəbbüsləri ilə seçilən Mehriban xanım Əliyevanın fəaliyyəti yüksək qiymətləndirilir, onun gördüyü işləri xoşməramlı səfirlər üçün örnək hesab edirlər. 2010-cu ilin iyulunda Qəbələdə İkinci Beynəlxalq Musiqi Festivalında iştirak edən UNESCO-nun sabiq baş direktoru İrina Bokova bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşmasındakı işinə sədaqətinə, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərə, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfələrinə görə xoşməramlı səfir Mehriban xanım Əliyevaya «Qızıl Motsart» medalını təqdim edib.

UNESCO-nun xoşməramlı səfiri seçiləndən iki il sonra Mehriban Əliyeva müxtəlif sahələrdə genişmiqyaslı fəaliyyəti, ehtiyacı olan uşaqlara qayğısı, təhsilə, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə də diqqəti çəkib və 2006-cı il noyabrın 24-də 51 müsəlman dövlətinin təmsil olunduğu İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının - ISESCO-nun da xoşməramlı səfiri adına layiq görülüb.

Mehriban xanım Əliyeva xoşməramlı səfir kimi fəaliyyətindən danışarkən deyir: «Təbii ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi, bütün bu illər ərzində mən öz beynəlxalq fəaliyyətimi nizamlamalı olurdum. İlk növbədə, bu, mənim üçün dünya ictimaiyyətinə Azərbaycanın tarixini, mədəni irsini, bununla yanaşı, Azərbaycanın bugünkü siyasi və ictimai gerçəkliklərini çatdırmaq imkanı idi. Müasir Azərbaycanın nə demək olduğunu, onun əhəmiyyətini, siyasi mövqeyini, bu ölkənin potensialını dünya ictimaiyyətinə çatdırmaq lazım idi. Düşünürəm ki, bu istiqamətdə də xeyli iş görməyə nail olmuşam. Buna görə də mən gələcəyə nikbin baxıram. Düşünürəm ki, bütün bu illər ərzində toplanan təcrübə, vərdişlər mənə kömək edəcək».

# Devizimiz operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıqdır



2012-ci ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - «ASAN xidmət» fəaliyyətə başladığı qısa müddət ərzində təkcə ölkəmizdə deyil, bütün dünyada bir Azərbaycan brendi olaraq beynəlxalq təşkilat və qurumlar, xarici dövlətlərin nümayəndələri tərəfindən yüksək qiymətləndirilərək intellektual məhsul kimi tanındı. Müsahibimiz Agentliyin sədri Ülvi Mehdiyevdir.

**- Ülvi müəllim, «ASAN xidmət»in mahiyyətini qısaca şərh etmək üçün hansı məqamları vurğulamağa üstünlük verərdiniz?**

- Dövlətimizin başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə 2012-ci il iyulun 13-dən fəaliyyətə başlamış Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tabeliyindəki «ASAN xidmət» mərkəzlərinin prinsiplərinin əsasını şəffaflıq, rahatlıq, vətəndaşlarla nəzakətli davranış, innovativlik və məsuliyyət təşkil edir. İlk gündən bu prinsipləri rəhbər tutan «ASAN xidmət» aradan keçən müddət ərzində vətəndaşların etimadını və rəğbətini qazanıb.

«ASAN xidmət» xidmətlərin vahid məkandan göstərilməsini təmin edən dövlət qurumudur. Hazırda mərkəzlərdə 10 dövlət orqanı, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 300-dən çox xidmət göstərilir. Bu model dövlət-özəl sektor tərəfdaşlığının uğurlu nümunəsi kimi çıxış edir. Mərkəzlərdə göstərilən bütün xidmətlər vahid standartlar əsasında təqdim olunur. Qurumun bu formada təşkil edilməsi dövlət xidmətlərinin operativliyini və çevikliyini təmin edir. Vətəndaşlara xidmətlərin müasir üsullarla təqdim edilməsi və keyfiyyətin artırılması məqsədilə innovativ metodlardan istifadə olunur. Şəffalığın təmin edilməsi üçün proaktiv üsullardan istifadə olunub, müvafiq xidmətləri və dövlət rüsumlarını əks etdirən monitorlar, tablolar, məlumatlandırıcı löhvələr yerləşdirilib. Xidmətlər üzrə ödənişlər mərkəzlərdə yerləşdirilən bank və ödəniş terminalları vasitəsilə həyata keçirilir.

Hər bir «ASAN xidmət» mərkəzi gün ərzində orta hesabla 2000 müraciət qəbul edir. Bu günə qədər «ASAN xidmət»ə 23 milyondan çox müraciət edilib. «ASAN xidmət» brendinin əhatə dairəsi təkcə statik mərkəzlərlə məhdudlaşmır. Səyyar avtobuslar və «ASAN qatar»la da vətəndaşlara xidmət göstərilir.

Vətəndaşların dövlət xidmətləri sahəsində maariflənmdirilməsi «ASAN xidmət» mərkəzlərinin əsas vəzifələrindən biridir. Dövlət xidmətləri, tələb olunan sənədlər, ödəniləcək rüsumlar haqqında məlumatlandırma istiqamətində fəaliyyət göstərən «Çağrı mərkəzi-108» bu günədək 2 milyon yarımdan çox müraciəti cavablandırıb və həmin müraciətlər mütəmadi olaraq təhlil edilir.

**- «ASAN» komandası hansı prinsiplər əsasında və necə formalaşdırılır?**

- Vakant dövlət qulluğu vəzifələrinə işə qəbul «Dövlət qulluğu haqqında» Qanuna əsasən, Dövlət İmtahan Mərkəzinin elan etdiyi müsabiqə və müsahibə yolu ilə həyata keçirilir. İşə qəbul zamanı namizədin bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, vəzifə üçün zəruri olan şəxsi keyfiyyətləri yoxlanılmaqla müvafiq vəzifəyə uyğunluğu müəyyən edilir.

**- «ASAN xidmət»in fəaliyyət coğrafiyasının genişləndirilməsi istiqamətində hansı işlər görülür?**

- Hazırda 13 «ASAN xidmət» mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakı şəhərində, digərləri isə Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Masallı, Qəbələ, Quba və Mingəçevir şəhərlərində yerləşir. Cari ilin sonuna kimi İmişli və Şəkidə yeni «ASAN xidmət» mərkəzlərinin fəaliyyətə başlaması nəzərdə tutulur. Gələn il Tovuz, Ağcabədi, Kürdəmir, Şamaxı və Cəlilabadda yeni mərkəzlər istifadəyə veriləcək.

**- «ASAN xidmət» layihəsi dedikdə elektronlaşma, şəffaflıq və operativlik yada düşür. Bu istiqamətlərdə xidmətə hansı yeni innovasiyaların gətirilməsi nəzərdə tutulur?**

- «Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 14 mart 2018-ci il tarixli fərmanı ilə elektron hökumət sahəsində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi, habelə «Elektron hökumət» portalının idarə olunmasının və fəaliyyətinin təmin edilməsi və təkmilləşdirilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi ilə bağlı Dövlət Agentliyinə tapşırıqlar həvalə edilib. Fərmana əsasən, vətəndaşlara şəffaf, operativ və resurslara qənaət edilməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərinin tam elektronlaşdırılması, dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi istiqamətində tədbirlər müəyyən edilib. Bununla əlaqədar artıq «Rəqəmsal hökumətə keçid üzrə Fəaliyyət Planı»nın layihəsi hazırlanıb ki, burada da qeyd edilmiş istiqamətlərdə mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bu tədbirlər dövlət xidmətlərinin göstərilməsi üçün tələb edilən məlumatların dövlət qurumları tərəfindən xidmət istifadəçilərindən yalnız bir dəfə alınması və «once-only» prinsipinin təmin olunması, dövlət xidmətlərinin təşkili və göstərilməsinin sadələşdirilməsi və təkmilləşdirilməsi, «Elektron hökumət» portalının «bir pəncərə» prinsipi üzrə xidmət göstərməsinin təmin edilməsi, çevik qərarqəbuletmə prosesinin təşkili məqsədilə dövlət qurumlarında DATA analiz və BI (business intelligence) alətlərinin tətbiqi kimi məsələləri əhatə edir.

> Hər bir «ASAN xidmət» mərkəzi gün ərzində orta hesabla 2000 müraciət qəbul edir. Bu günə qədər «ASAN xidmət»ə 23 milyondan çox müraciət edilib. «Çağrı mərkəzi-108» bu günədək 2 milyon yarımdan çox müraciəti cavablandırıb

**- «ASAN viza» ötən il yanvar ayının 10-dan fəaliyyətə başlayıb və artıq bu sahədə Azərbaycan təcrübəsi nümunəyə çevrilib. «ASAN Viza.2» konsepti üzrə hazırlıq işləri necə gedir?**

- Sistem vasitəsilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər elektron vizanı 3 mərhələdə - (müraciət et, ödəniş et və e-vizanı yüklə) 3 iş günü ərzində əldə edə bilirlər, təcili viza isə 3 saat müddətində verilir.

«Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında» ölkə Prezidentinin 2018-ci il 31 yanvar tarixli fərmanına uyğun olaraq, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Heydər Əliyev Beynəlxalq hava limanında, eləcə də Gəncə və Qəbələ Beynəlxalq hava limanlarında «ASAN Viza» sistemi vasitəsilə elektron qaydada viza verilməsi həyata keçirilir. Bu günə kimi həmin sistem vasitəsilə 674.422 əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə elektron viza verilib. Hava limanında verilmiş vizaların sayı isə 121.675-ə çatıb.

Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrə getməsi üçün zəruri vizaların «ASAN Viza» sistemi («ASAN Viza 2.0») vasitəsilə alınmasını təmin etmək məqsədilə tədbirlər həyata keçirilir. Konsepsiyaya uyğun olaraq, «ASAN Viza 2.0» sistemi Azərbaycan vətəndaşlarının xarici səfərlərinin həyata keçirilməsi üçün tələb olunan vizaların verilməsi ilə bağlı müraciətlərin elektron qaydada göndərilməsini, qəbulunu, sənədlərin yoxlanılmasını, müraciətin cavablandırılmasını təmin edəcək.

Azərbaycan vətəndaşlarının xarici ölkələrə getməsi üçün vizaların «ASAN Viza 2.0» sistemi üzərindən verilməsi yalnız ölkədaxili sistemlərin deyil, həm də xarici ölkələrə məxsus olan informasiya sistemlərinin inteqrasiyasını əhatə edən kifayət qədər mürəkkəb bir prosesdir. Hazırda bu sahədə müxtəlif xarici ölkələrin səfirlikləri ilə danışıqlar aparılır və inteqrasiya imkanları araşdırılır.

**- Azərbaycanın son illər sosial innovasiyaların inkişafı, «ASAN xidmət»in fəaliyyəti sahəsində qazandığı nailiyyətlər dünyada maraqla izlənilir. Ölkəmizin əldə etdiyi uğurlar dünya ictimaiyyətinə necə təqdim olunur?**

- Beynəlxalq əməkdaşlığın qurulmasında əsas istiqamət «ASAN xidmət» konsepsiyasının beynəlxalq aləmdə təşviqi və tanınmasından ibarətdir. Beynəlxalq əlaqələrimiz əsasən bir neçə istiqamətdə inkişaf edir: xarici ölkələrlə, beynəlxalq təşkilatlar çərçivəsində, elm və tədqiqat mərkəzləri ilə və s.

Dövlət Agentliyi bir sıra aparıcı beynəlxalq təşkilatlarla, o cümlədən BMT, BMT-nin İnkişaf Proqramı, Avropa İttifaqı, Avropa Şurası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, ISESKO, Afrika Birləşmiş Şəhərlər və Yerli Hökumət Təşkilatı və s. qurumlarla fəal əməkdaşlıq edir. Bu sahədə ən böyük uğurlarımızdan biri kimi 2015-ci ildə «ASAN xidmət»in BMT-nin «Dövlət xidmətləri mükafatı»nın qalibi seçilməsini qeyd etmək yerinə düşərdi. Mükafatın davamı olaraq, Dövlət Agentliyi mükafatın qalibi kimi hər il BMT Dövlət Xidmətləri Forumunda iştirak edir. Bu cür beynəlxalq tədbirlər «ASAN xidmət»in fəaliyyətinin dünya ictimaiyyətinə çatdırılması və uğurlu əməkdaşlıqların qurulması baxımından faydalıdır. BMT və ona üzv ölkələrlə aparılmış uğurlu fəaliyyətin nəticəsi olaraq, bu il martın 22-də Cenevrədə keçirilmiş BMT-nin İnsan Hüquqları Şurasının 37-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə «Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və davamlı inkişaf məqsədlərinin təşviqi» adlı qətnamə yekdilliklə qəbul edilib.

Dövlət Agentliyinin xarici ölkələrin tərəfdaş qurumları ilə əlaqələri əməkdaşlığın hüquqi bazasının yaradılması, «ASAN xidmət» modelinin təşviqi və tanışlıq məqsədilə qarşılıqlı təcrübə səfərlərinin, məsləhətləşmələrin həyata keçirilməsi istiqamətində davam etdirilir. İndiyə kimi Fransa, İtaliya, Koreya, Monteneqro, Mərakeş, İndoneziya, Əfqanıstan kimi ölkələrlə anlaşma memorandumları imzalanıb. Rusiya Federasiyasının Ulyanovsk vilayəti və Dağıstan Respublikası ilə də əməkdaşlıq əlaqələrimiz mövcuddur.

Uğurlu beynəlxalq əlaqələrimizin nəticəsi olaraq, artıq dövlət xidmətləri sahəsində islahatlar aparmaq istəyən ölkələr «ASAN»ı nümunə olaraq qəbul və tətbiq edir.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# İslahatlar iqtisadi artımı sürətləndirir

«Moody's» beynəlxalq reytinq agentliyi Azərbaycan iqtisadiyyatının vəziyyətinə dair təhlilini və ölkənin qarşıdakı iki il üçün makroiqtisadi göstəricilərlə bağlı yeni proqnozlarını açıqlayıb.

Agentliyin açıqlamasında göstərilib ki, 2017-ci ildən Azərbaycan iqtisadiyyatının tam stabilləşmə mərhələsinə qədəm qoyması nikbin ssenarilərə ciddi əsaslar verir. 2018-ci ildə neft qiymətlərinin orta bazar qiymətlərinə uyğun olması, milli valyutanın sabitliyi və inflyasiyanın azalması fonunda ümumi daxili məhsul (ÜDM) ilk yarım ildə artıb. İlin sonuna kimi ÜDM-in 1,5% səviyyəsində artımı proqnozlaşdırılır. İqtisadi artım əsas etibarilə qeyri-neft sektorundakı inkişaf hesabına təmin olunacaq. 2019-cu ildə isə qeyri-neft sektorunun artımı 5%-i ötməklə ümumi iqtisadi inkişafın 3%-dək yüksəlməsini sürətləndirəcək.

«Moody's» agentliyi Azərbaycan hökumətinin həyata keçirdiyi büdcə-fiskal-vergi siyasətinə diqqət çəkərək aparılan islahatların maliyyə intizamının artmasına, xərclərin səmərəliliyinin yüksəlməsinə və iqtisadi artımın dəstəklənməsinə yönəldiyinə diqqət çəkib. Qeyd olunub ki, büdcənin maliyyə ehtiyatlarının formalaşmasında neft sektorunun payının aşağı düşməsi və Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlərin yalnız iri investisiya layihələrinə yönəldilməsi, gəlirlərin vergi-gömrük daxilolmaları əsasında formalaşdırılması sabit maliyyə-büdcə sisteminin möhkəmlənməsinə imkan verir.

Proqnozlara əsasən, 2018-ci ildə tikintinin sabit bərpası şəraitində həmin sahədən daxil olan gəlirlər ÜDM-də 2017-ci ilə nisbətən 1,7%-ə qədər artacaq, sənaye sektorunda isə artım həm bu il, həm də 2019-cu ildə 2%-dək yüksələcək, iqtisadi fəallığın yaxşılaşması hesabına qeyri-neft sektoruna investisiya qoyuluşları artacaq.

Beynəlxalq Agentlik 2018-ci ildə Azərbaycanda inflyasiyanın 7% təşkil edəcəyini, 2019-cu ildə isə iqtisadi artımın daha yüksək templəri və istehlak xidmətləri üzrə tələbin yüksəlməsi ilə əlaqədar qiymət indeksinin 8%-ə çatmasını proqnozlaşdırıb. Buna görə də inflyasiya ilə mübarizə hökumətin mühüm vəzifəsi olaraq qalmalı və əlaqələndirici qurumların sərt pul-kredit və maliyyə siyasəti həyata keçirməsi nəzərdən qaçmamalıdır. Gözləntilərə əsasən, Azərbaycan Mərkəzi Bankının əsas vəzifələrindən biri 2018-2019-cu illərdə məzənnə sabitliyini qorumaq, manatın dəyərdən düşməsinin qarşısını almaq, valyuta bazarında məhdudlaşdırıcı tədbirləri və digər müdaxilələri nizamlamaq olacaq.

«Moody's» Azərbaycan bank sistemi üzrə vəziyyətin qənaətbəxş olduğunu nəzərə alaraq proqnozunu «mənfi»dən «stabil»ə dəyişmək barədə qərar qəbul edib. Agentliyin fikrincə, iqtisadi artımın bərpa olunması kreditlərə tələbatın artmasına səbəb olacaq. Bundan əlavə, 2018-ci ildə korporativ kreditləşmə dinamikası zəif olacaq ki, bu da bank sahəsində islahatların davam etdirilməsini qaçılmaz edir. Bu baxımdan bank sektorunun konsolidasiyası istisna deyil.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov agentliyin proqnozlarını şərh edərək bildirib ki, 2018-ci ildə ölkəmizdə sistem əhəmiyyətli islahatlar davam etdirilib, yerli və xarici biznesin fəaliyyəti stimullaşdırılıb, qeyri-neft ixracı ilə məşğul olan sahibkarlara ixrac qabiliyyətinin artırılması üçün təşviq siyasəti həyata keçirilib. Bütün bunlar maliyyə sabitliyinin təmin edilməsinə şərait yaradıb. İslahatlar sayəsində ilin ilk 7 ayında ümumi milli məhsul 1,2% artıb, qeyri-neft sektorunda 4%-dən çox artım qeydə alınıb və ölkəmizin tədiyyə balansı yaxşılaşıb.

Millət vəkili qeyd edib ki, iqtisadi inkişaf proqnozları əsasən, 2018-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldo əldə olunacaq və bu faktor maliyyə sabitliyinə, manatın məzənnəsinə müsbət təsir edəcək. «2018-ci ildə dövlət tərəfindən biznes mühitinin yaxşılaşdırılması ilə bağlı yürüdülən siyasət növbəti illərdə davam etdiriləcək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıran mühüm addımlar atılacaq, vergi ödəyicilərinin hüquqlarının qorunması, xidmət səviyyəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər həyata keçiriləcək».

**E. CƏFƏRLİ**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi**

miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa,
**Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**,
rəsmi internet saytının «Sual-cavab» bölməsinə
**www.taxes.gov.az/www.taxes/faq/sual.html** və **ww.asxm.gov.az**
internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Beynəlxalq təlim təcrübə ilə elmin vəhdətinə həsr edilib

**Avstriyanın Laksenburq şəhərində Beynəlxalq Antikorrupsiya Yay Akademiyasının «Təcrübə elmlə qarşılaşır» mövzusunda intensiv proqramlı təlimtəşkil edilib. Beynəlxalq Antikorrupsiya Akademiyasının (İACA) keçirdiyi tədbirdə 39 ölkədən 59 nümayəndə iştirak edib.**

Təlim zamanı «Korrupsiyanı yenidən dərk etmək: qlobal perspektivlər, kontekstləşdirilmiş təşəbbüslər, korrupsiyanın yeni formalarla köhnə bir cinayət kimi təyini», «Xarici rüşvətlə mübarizə: uğurlar və çətinliklər», «Proqnozlaşdırmada və korrupsiyanın məhdudlaşdırılmasında iqtisadi nəzəriyyənin rolu», «Dövlət satınalmalarının tənzimlənməsində müqayisəli beynəlxalq perspektivlər», «İnkişaf etmiş sosial media tədqiqatları və alətləri», və s. kimi aktual məsələlər müzakirə edilib.

Təlimdə Azərbaycan Respublikasını Vergilər Nazirliyinin İkitərəfli və çoxtərəfli sazişlərin icrasına nəzarət departamentinin Maliyyə institutlarında vergi monitorinqi şöbəsinin baş dövlət vergi müfəttişi, baş vergi xidməti müşaviri Dəyanət Hüseynzadə təmsil edib.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# Məhsulların anbardan pərakəndə ticarət obyektlərinə verilməsi

***Məhsulların istehsalını və satışını həyata keçirən müəssisə tərəfindən həmin məhsulların anbardan pərakəndə ticarət obyektlərinə verilməsi hansı qaydada rəsmiləşdiriləcəkdir?***

Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli 1341 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»-nın 3.5-ci bəndinə əsasən pərakəndə ticarət fəaliyyəti göstərən vergi ödəyicisinin bu fəaliyyətlə yanaşı, istehsal (o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı) və topdansatış fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) mövcud olduqda, həmin təsərrüfat subyektlərindən (obyektlərdən) malların pərakəndə satış fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilir.

**Qeyd olunanlara əsasən:**

İstehsalçı müəssisə tərəfindən istehsal olunan məhsulların istehsalçıya məxsus təsərrüfat obyektlərində (subyektlərində) pərakəndə qaydada satışının həyata keçirilməsi məqsədilə həmin məhsullar istehsal müəssisəsindən pərakəndə satış fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilməklə rəsmiləşdirilir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin ilk yeddi ayı ərzində Azərbaycanda ticarət əməliyyatlarının həcmi ümumilikdə **16 milyard 524 milyon 541 min** ABŞ dolları olub.
- Trans-Anadolu (TANAP) təbii qaz boru kəməri layihəsi üzrə Türkiyədə **860** layihəyə ayrılan qrant ümumilikdə **140 milyon** türk lirəsinə çatacaq.
- Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən avqustun 14-də növbəti hərrac elektron müstəvidə keçirilib və bu hərracda **25** dövlət əmlakına **29** sifariş verilib.
- Çovdar Filiz Emalı sahəsində istehsal nəticəsində 2017-ci ilin aprelindən indiyədək «AzerGold» QSC tərəfindən **81 min 100** unsiya qızılın, **120 min 500** unsiya gümüşün satışı nəticəsində **180 milyon** manatdan çox gəlir əldə edilib.
- Azərbaycan Respublikası Dövlət Neft Fondu 2001-ci ilin əvvəlindən bu il avqust ayının 1-dək «Azəri-Çıraq-Günəşli» neft-qaz yataqları blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində ümumilikdə **134 milyard 107 milyon** ABŞ dolları gəlir əldə edib. Layihə çərçivəsində bu ilin yanvar-iyul aylarında fonda **5 milyard 621 milyon** dollar vəsait daxil olub.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Avqustun 10-da 11 saylı Ərazi Vergilər Departamentinin əməkdaşları Mingəçevir şəhərində vergi ödəyiciləri ilə növbəti görüş keçirmişlər. Görüşdə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və «Dövlət rüsumu haqqında» Qanuna edilmiş dəyişikliklər, əmək münasibətləri sahəsində qanunvericiliyin tələblərinə əməl edilməsi və həmçinin bu sahədə həyata keçiriləcək nəzarət tədbirləri, vergi borcları, bəyannamələrin təqdim edilməsi, bəyannamələrdə yaranan uyğunsuzluqlar və uyğunsuzluqların aradan qaldırılması, «Elektron qaimə-fakturanın forması» və «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları», statusundan asılı olmayaraq bütün vergi ödəyiciləri tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim edilməsi barədə söhbət aparılmış, görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

- Avqustun 11-də 9 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları Ucar rayonunda fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüş keçirmişdir. Görüş zamanı vergi qanunvericiliyinə edilmiş son dəyişikliklər, bu dəyişikliklərin sahibkarların fəaliyyətinin stimullaşdırılmasında rolu, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, eləcə də elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadə qaydaları, ictimai iaşə, pərakəndə ticarət, topdansatış ticarət və İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotunun aparılması qaydaları barədə söhbət aparılmışdır. Vergi əməkdaşları qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyənnamələri və hesabat formaları, vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin dərinləşdirilməsi, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərindən irəli gələn məsələlər, əmək müqaviləsinin bağlanması və s. barədə suallara ətraflı izahatlar vermişlər.

# Avqustun 15-i

# Torpaq vergisinin ödənilməsinin son müddəti

## Fiziki şəxslərin torpaq vergisi bələdiyyə büdcəsinə ödənilməlidir

Bu gün 2018-ci ilin avqust ayı üzrə vergi orqanına təqdim edilməli torpaq vergisi üzrə öhdəliklərin icrasının son günüdür. Hesablanmış torpaq vergisi bərabər məbləğlərlə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq yerli büdcəyə, yəni bələdiyyəyə ödənilir.

Fiziki şəxslərin torpaq vergisi isə bələdiyyələr tərəfindən cari ilin iyul ayının 1-dək hesablanır, ödənilməli torpaq vergisinin məbləğini özündə əks etdirən tədiyyə bildirişi isə avqustun 1-dən gec olmayaraq onlara çatdırılır.

| Yaşayış məntəqələri | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar *(manatla)* | | Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar *(manatla)* | |
|---|---|---|---|---|
| | *10 000 м$^{2}$dək olduqda* | *10 000 м$^{2}$dən çox olduqda* | *10 000 м$^{2}$dək olduqda* | *10 000 м$^{2}$dən çox olduqda* |
| Bakı | 10 | 20 | 0,6 | 1,2 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 8 | 16 | 0,5 | 1 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 4 | 8 | 0,3 | 0,6 |
| Rayon tabeliyində olan şəhərlərdə, qəsəbə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 2 | 4 | 0,1 | 0,2 |

### Torpaq vergisini necə hesablamalı?

Fiziki şəxslərin və müəssisələrin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır. Həmçinin tikililərin və qurğuların altında yerləşən, habelə obyektlərin sanitariya mühafizəsi üçün nəzərdə tutulan torpaq sahələri də vergiyə cəlb olunur. Təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqlarının vergi dərəcələri torpaqların təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar əsasında hər hektara görə hesablanır. Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara əsasən, bir şərti balın qiyməti 6 qəpikdir.

Kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulan, lakin təyinatı üzrə istifadə olunmayan torpaqlar üzrə vergi dərəcəsi torpaq sahəsinin hər 100 m$^{2}$ görə 2 manat müəyyən edilir. Müəssisələrin torpaq vergisi torpaq sahələrinin ölçüsünə və cədvəldə göstərilən dərəcələrə əsasən illik hesablanır və mayın 15-dən gec olmayaraq vergi orqanına müvafiq bəyannamə təqdim edilir.

Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir. Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə etdikləri torpaqlara, habelə hüquqi şəxslərə məxsus olan torpaqlara görə hesablanmış torpaq vergisi məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

### Vergidən azad edilən torpaqlar

Bəzi kateqoriyalı torpaqlar var ki, onlar vergiyə cəlb olunmur. Bunlar aşağıdakılardır:

- yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;
- dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, maliyyə bazarlarına nəzarət orqanının, habelə Azərbaycan Respublikası Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;
- istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar;
- dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

Aşağıdakı fiziki şəxslərin mülkiyyətində olan torpaqlara görə ödənilməli torpaq vergisinin məbləği 10 manat azaldılır:

- Azərbaycan Respublikasının Milli qəhrəmanları;
- Sovet İttifaqı və Sosialist əməyi qəhrəmanları;
- müharibə əlilləri;
- həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri);
- 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər;
- müharibə veteranı adı almış şəxslər;
- Çernobıl AES-də mülki və ya hərbi təyinatlı atom obyektlərində radiasiya nəticəsində xəstəliyə tutulmuş və bu xəstəliyi keçirmiş şəxslər.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən yaradılmış sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər həmin parklarda qeydiyyata alındıqları hesabat ilindən başlayaraq bu parklarda istifadə etdikləri torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azad edilir. Bu güzəşt investisiya təşviqi sənədi almış hüquqi şəxs və fərdi sahibkara da aiddir. Həmçinin sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru bu parkların ərazisində istifadə etdiyi torpaqlara görə torpaq vergisini ödəməkdən azad edilir.

### Vergiləri vaxtında ödəməməyin məsuliyyəti

Torpaq sahəsinin mülkiyyətçiləri torpaq vergisinin düzgün hesablanması və vaxtında büdcəyə ödənilməsinə görə məsuliyyət daşıyırlar.

- Torpaq vergisinin hesabatını əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən müəssisəyə 40 manat;
- Aktivləri barədə məlumatı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə 100 manat;
- Torpaq vergisinin hesabatda göstərilən məbləği hesabatda göstərilməli olan məbləğə nisbətən azaldılıbsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılıbsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.
- Torpaq vergisi müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir il müddətindən çox olmamaq şərtilə, vergi ödəyicilərindən və ya vergi agentindən ödənilməmiş vergi məbləğinin 0,1 faizi miqdarında faiz tutulur.

Torpaq vergisinin hesablanması və vergi bəyannaməsinin doldurulması qaydaları barədə daha ətraflı məlumatı Vergilər Nazirliyinin www.taxes.gov.az rəsmi internet saytından əldə etmək olar.

**Elxan SALAHOV**

# Qeyri-neft sənayesində davamlı artım qeydə alınır

## Səmərəli vergi siyasəti bu sahənin inkişafına stimul verir

2018-ci ilin yanvar-iyul ayları ərzində ölkədə 27 milyard manatdan artıq sənaye məhsulu istehsal olunub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1%-dən çox artım deməkdir. Sənaye üzrə məhsul istehsalı qeyri-neft sektorunda 9%-ə yaxın artıb, neft sektorunda isə 0,2% azalıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, ilin ilk yeddi ayı ərzində qeyri-neft sənayesində yeyinti və içkilər, toxuculuq, geyim, tikinti materialları, kompüter və elektron məhsullar, maşın və avadanlıqların istehsalında əhəmiyyətli dərəcədə artım qeydə alınıb.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova mətbuata açıqlamasında bildirib ki, son illərdə regionlarda istifadəyə verilən müəssisələrin istehsal gücünü artırması və yeni rəqabətqabiliyyətli məhsulların istehsalı sənaye sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artması ilə nəticələnib. İnkişaf etmiş sahələr kimi emal, kimya, metallurgiya, yüngül və yeyinti sənayesi, tikinti materialları bölmələri daha çox diqqəti cəlb edir.

2018-ci ildə sənaye parkları, zonaları və məhəllələrinin yaradılması, yeni rezidentlərin cəlb edilməsi istiqamətində işlər davam etdirilib. Sənaye parklarına indiyədək 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalda 11 minə yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə investisiya qoyuluşunun 3,6 milyard dollara çatdırılması və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sumqayıt Kimya Sənaye Parkında 7 müəssisə fəaliyyət göstərir, 2018-ci ilin sonunadək daha 7 müəssisə istifadəyə veriləcəkdir. Bu müddətdə Balaxanı Sənaye Parkının rezidentlərinin də sayı artaraq 14-ə çatıb. Onlardan 5-i artıq fəaliyyət göstərir. Rezidentlər tərəfindən Balaxanı Sənaye Parkına ümumilikdə 32 milyon manat məbləğində investisiya yatırılıb. Sahibkarların marağı nəzərə alınaraq parkın ərazisi 8,3 hektaradək genişləndirilib. Balaxanı Sənaye Parkında ilkin mərhələdə 400-ə yaxın daimi iş yeri yaradılıb. Mingəçevir Sənaye Parkında investisiya dəyəri 85 milyon dollar olan 2 iplik fabrikində 750 nəfər işlə təmin olunub.

Ölkədə ilk sənaye zonası olan Neftçala Sənaye Məhəlləsində 8 müəssisə artıq fəaliyyətə başlayıb, bu müəssisələrə 45 milyon manatdan çox investisiya qoyulub, 500-ə yaxın yeni iş yeri yaradılıb. Bu ilin mart ayının sonunda Azərbaycan və İran prezidentlərinin iştirakı ilə Neftçala Sənaye Məhəlləsində açılmış «Xəzər» avtomobil zavodunda ildə 10 min avtomobil istehsal olunacaq. Masallı Sənaye Məhəlləsinin tikintisi başa çatdırılıb, Hacıqabul və Sabirabad Sənaye məhəllələri ilin sonunadək istifadəyə veriləcəkdir.

Qeyri-neft sənayesinin inkişafında investisiya fəallığı da mühüm rol oynamaqdadır. İlin əvvəlindən qeyri-neft sənayesinə investisiya qoyuluşları ötən ilin müvafiq dövrü ilə müqayisədə 5%-dən çox artıb. 2018-ci ilin yanvar-iyul aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 7457,3 milyon manat vəsait yönəldilib ki, onun böyük bir hissəsi, qeyri-neft sektoruna yönəldilib. Qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmi isə 19%, o cümlədən qeyri-neft sənayesinə qoyulan investisiyalar 65,5 % artıb.

Qeyi-neft sənayesi sektoruna xarici investorları cəlb etmək məqsədilə müxtəlif stimullaşdırıcı addımlar atılıb, vergi-gömrük, investisiya və digər güzəştlərin tətbiq olunması sayəsində xarici investorların, beynəlxalq maliyyə təşkilatlarının bu sahəyə marağı artıb. Dünya Bankı Balaxanı texnoparkı layihəsinə 47 milyon dollar investisiya qoymaq üçün Azərbaycan hökuməti ilə saziş imzalayıb. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) yüksək texnologiyalar və sənaye parklarına investisiyalar yatırmaq üçün hökumətlə razılıq əldə edib.

İndiyədək sahibkarlara verilmiş 5,3 milyon manat həcmində ixrac təşviqinin böyük bir hissəsi qeyri-neft sənayesi istehsalçılarının payına düşür.

Qeyri-neft sənayesinin inkişafında səmərəli vergi siyasətinin həyata keçirilməsi mühüm rol oynayır. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı qanunun icrası regionlarda sənaye sektorunda çalışan sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsinə, onların yeni investisiya layihələrinin icrasına başlamasına səbəb olub. Vergi yükünün aşağı salınması, stimullaşdırıcı vergi siyasətinin tətbiqi qeyri-neft sənayesində istehsalın canlanmasına və yeni iş yerlərinin yaranmasına təkan verib.

Sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracatçılar üçün daha da münasib şəraitin yaradılması, mənşə sertifikatının verilməsi müddətinin 3 gündən 1 günə endirilməsi, dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında «bir pəncərə» prinsipinin tətbiqi qeyri-neft sənayesi məhsullarının ixracında mühüm rol oynayıb. Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan malların 2016-cı ilin iyun ayının 1-dən 3 il müddətinə yol vergisindən azad olunması ölkədən xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşıma xərclərinin aşağı salınmasına, eləcə də ixrac imkanlarının yaxşılaşmasına dəstək məqsədi daşıyır.

**Elbrus CƏFƏRLİ**

# Elektron ödənişlərdən vergi tutulması

Vergi qanunvericiliyinə əsasən, Azərbaycanda qeydiyyatda olmayan şirkətdən elektron iş və xidmətlər alındıqda vergi müştəri tərəfindən ödənilir. **Bəs bu ödəniş necə həyata keçirilir?**

Azərbaycan Banklar Assosiasiyasının ödəniş sistemləri və alternativ xidmət kanalları üzrə ekspert qrupunun üzvü Teymur Axundov suala aydınlıq gətirərək qeyd edib ki, müştəri öz ödəniş kartı ilə xaricdən internet vasitəsilə iş və xidmət aldığı zaman bu vəsaitin cəlb edilməsi müştərinin kart hesabı ilə əlaqədar iki yolla aparılır. Hesab dollarda olduqda proses komissiyasız baş verir, manatla olduqda isə konvertasiya üçün komissiya haqqı tutulur. Lakin unutmaq olmaz ki, manatla ödəniş edən zaman valyuta kursunun dəyişməsi müştəri üçün borc yaranmasına gətirib çıxara bilər. Bunun səbəbini ödənişlərin vergiyə cəlb olunması prosesində görmək mümkündür.

### Müştəri ödənişi dollarla etdiyi halda...

İş və xidmətin (məsələn, 100 dollarlıq iş və xidmət) ifadə olunduğu valyuta ilə müştərinin kartının valyutası eyni olduqda beynəlxalq ödəniş sistemləri (BÖS) müştərinin kartından 100 dollar tutur, amma bank hələ bu əməliyyatı görmür. Əməliyyatı prosessinq mərkəzi (AzerCard, Millikart və s.) görür. Bankla prosessinq mərkəzi arasında razılaşmaya əsasən, mərkəz konkret MCC kodlar (hər bir əməliyyat üzrə ödənişlər VISA, MasterCard tərəfindən müəyyən edilən kodlar üzərindən gedir və bu kodlar MCC kodlar adlanır. Kodlarda ödənişin nəyə aid olduğu bilinir: məsələn, təhsil xidməti, səhiyyə xidməti, hər hansı mal, iş və ya xidmət) üzrə əməliyyatlara vergi hesablanmasını da nizamlayır.

Yəni müştəri 100 dollarlıq xidməti alan zaman prossesinq mərkəzinin nizamlamasına uyğun olaraq, kartdan 100 dollar, +18% tutulur. Hesabda bu məbləğ olmadıqda əməliyyat həyata keçirilmir.

Bank isə əməliyyatı 2-3 gün sonra, yəni BÖS tərəfindən ödənişin məlumatları (filebank) banka daxil olanda görür. Bu zaman bank 100 dolları öz hesabına, 18 dolları isə vergi hesabına həmin günün kursuna əsasən manatla köçürür. Nəticədə dollar hesabı olan vergi ödəyicisi aşağıdakı miqdarda ödəniş edir:

**Ümumi ödəniş =**

**100 dollar + 18% vergi = 118 dollar.**

### Ödəniş manatla edildikdə...

Müştəri iş və xidmət alan zaman avtorizasiya edərək ödənişi təsdiq etdikdə, həmin günün kursu ilə 100 dollar + 18% + 4% = 122 dollar (bu, təqribi rəqəmdir: 4% bankın komissiyasıdır və bankdan-banka fərqli ola bilər) ekvivalentində vəsait konvertasiya olunur və kartda bloklanır. Sonradan isə dollar hesablı ödəniş üçün qeyd etdiyimiz oxşar əməliyyat burada davam edir. Əgər məlumat banka daxil olan gün kurs dəyişərsə (dolların kursu qalxarsa) və kartda bu fərqi ödəmək üçün kifayət qədər vəsait olmazsa, yaranan fərq müştərinin banka borcu kimi qeydə alınır. Nəticədə manat hesabı olan vergi ödəyicisi aşağıdakı miqdarda ödəniş edir:

**Ümumi ödəniş =**

**100 dollar x əməliyyat günün məzənnəsi + 18% vergi + bank komissiyası ± valyuta kursundakı dəyişiklik.**

T.Axundov qeyd edib ki, gələcəkdə vergi tətbiq ediləcək yeni sahələr müəyyənləşdirilir. Bu xidmətlərin siyahısı 4 əsas qrupda cəmləşdirilir:

Xidmətlər - vergi dərəcəsi: ödəniş üzrə 18%;

Son məhsulu elektron mal kimi qiymətləndirilən xidmətlər - vergi dərəcəsi: ödəniş üzrə 18%;

Mərc oyunları, lotereyalar və digər müsabiqələr - vergi dərəcəsi: ödəniş üzrə 18%, uduş üzrə 10%;

Pul kisəsi xidməti - vergi dərəcəsi: pul kisəsi ilə bağlı xidmətlər və vəsaitlərin göndərilməsi üzrə 10%.

Bura yerində göstərilən xidmətlər: məsələn, nəqliyyat xidməti, bərbərxana xidməti və s. aid edilməyib. Həmçinin son məhsulu mal kimi qiymətləndirilən şirkətlərə ödəniş edildiyi zaman da sözügedən vergi tətbiq olunmayacaq.

Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin Vergi qanunvericiliyi idarəsinin direktoru Əvəz Quliyev mövzu ilə bağlı açıqlamasında bildirib ki, Vergi Məcəlləsinin 1 yanvar 2017-ci il tarixdən qüvvəyə minmiş 169.1-ci və 169.3-cü maddələrinin müddəalarına əsasən, vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən qeyri-rezidentdən elektron ticarət qaydasında işlərin və xidmətlərin alınmasına görə aparılan ödənişlərdən ƏDV hesablanmalı və ödənilməlidir. Elektron ticarət qaydasında alınan mallara görə ödənilən məbləğdən banklar tərəfindən ƏDV-nin hesablanması və alıcının hesabından tutulması isə Vergi Məcəlləsində nəzərdə tutulmamışdır.

Azərbaycan Respublikasının rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən əməliyyatı həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru həmin rezidentdən köçürülən məbləğin 10 faizi miqdarında ödəmə mənbəyində vergi tutur.

Bunlarla yanaşı, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından əldə edilən gəlirdən uduşa qoyulmuş məbləğ çıxıldıqdan sonra qalan məbləğdən gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

**F. İKRAMQIZI**

# Qiymətli kağızlar bazarında canlanma var

2018-ci ilin birinci yarısında qiymətli kağızlar bazarında həyata keçirilmiş əməliyyatların ümumi dəyəri 12 milyard 451 milyon manat olub. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 dəfə çoxdur. Əməliyyatların 52,2%-i (6 milyard 499 milyon manat) ilkin bazarda, 47,8%-i (5 milyard 952 milyon manat) isə təkrar bazarda aparılıb.

2018-ci ilin ilk altı ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə qiymətli kağızlarla edilmiş repo əməliyyatları 40 dəfə çox olub və bu əməliyyatların həcmi 466 milyon manat (94%-i və ya 439 milyon manat dövlət qiymətli kağızları ilə) təşkil edib. İlin ilk yarısında dövlət qeydiyyatı aparılmış qiymətli kağızların ümumi həcmi 8 milyard 210 milyon manatdır.

İqtisadçı ekspert Cəfər İbrahimli qiymətli kağızlar bazarındakı vəziyyəti şərh edərək bildirib ki, son dövrlərdə qiymətli kağızlar bazarında, eləcə də korporativ qiymətli kağızlar bazarında canlanma müşahidə olunur: «Son qanunvericiliyin dəyişməsi nəticəsində «marja ticarət» dediyimiz əməliyyatların bazisinin formalaşması ilə hazırda qiymətli kağızlar bazarının həcmi cari ilin ÜDM göstəricisi ilə müqayisədə təxminən 30% təşkil edir. Burada maliyyə-kapital bazarı həm investorlara, həm də şirkətlərə - emitentlərə maliyyə bazarlarından vəsait cəlb etmək imkanı yaradır. Bu, alternativ maliyyələşmə imkanıdır. Belə olan halda, şirkətlər bazara çıxaraq birbaşa özləri investordan daha ucuz maliyyə resursu cəlb edə bilirlər. Bu həm də şirkətlərin müsbət imicinin formalaşmasına təsir edir».

**Qiymətli kağızlar bazarında əməliyyatlar**
(yanvar-iyun 2018)




İqtisadçı ekspert Vüqar Bayramovun rəyinə əsasən, qiymətli kağızlar bazarının dövriyyəsinin genişləndirilməsi iqtisadiyyatın, xüsusən də maliyyə sektorunun inkişafı baxımından çox əlverişlidir: «İnkişaf etmiş ölkələrdə qiymətli kağızlar bazarı sektoru iqtisadiyyatın əsasını təşkil edir. Bu baxımdan, Azərbaycanda da islahatların əsas hədəfləri məhz qiymətli kağızlar sektorunun inkişafına nail olmaqdır. Azərbaycan üçün qiymətli kağızlar bazarının inkişafı çox prioritetdir. Çünki bu, iqtisadiyyatın normativ yolla inkişafının əsas səbəblərindən biridir.

Son rəqəmlər ondan xəbər verir ki, bazarda həyata keçirilən əməliyyatların strukturunda, eyni zamanda həcmində artımlar baş verib. Diqqət çəkən məqamlardan biri də ondan ibarətdir ki, əməliyyatların yarıdan çoxu ilkin bazarda baş verib. Bu isə bazara yeni məhsulların daxil olması, dayanıqlılığın təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Sevindirici haldır ki, repo əməliyyatlarının aparılmasında da canlanma yaranıb. Bu isə Mərkəzi Bank da daxil olmaqla bir sıra dövlət qurumlarından qiymətli kağızlar bazarına çıxarılan məhsulun həcmində artımların olduğunu göstərir. Nəticə etibarilə bu həm özəl sektorun, həm də dövlət sektorunun qiymətli kağızlar bazarında aktiv iştirakından xəbər verir. Təbii ki, əks-repo əməliyyatları da gedir. Həm repo, həm də əks-repo əməliyyatları qiymətli kağızlar bazarı üçün xarakterik olduğundan, bunların bərabər şəkildə davam etdirilməsi normaldır.

8.21 milyard manat dəyərində qiymətli kağızların dövlət qeydiyyatının aparılması da bazara marağın artmasından xəbər verir. Nəticədə qiymətli kağızlar bazarına məhsulun həcminin artırılması və dövlətlə yanaşı özəl sektorun da bazarda aktiv olması ondan xəbər verir ki, növbəti dövrdə də biz qiymətli kağızlar bazarının inkişafını müşahidə edə biləcəyik».

**FƏXRİYYƏ**

**Kredit aktivliyi artıb**

2018-ci ilin ilk yarısında ölkədə bank sektorunun kapitalı 5,2% artıb və bu sahədə 36 milyon manatdan çox xalis mənfəət əldə edilib. Ölkədə fəaliyyət göstərən bankların cəmi aktivləri 27 milyard 991 milyon manat olub. Sektorun balans kapitalı 3 milyard 904 milyon manat, əhalinin əmanətləri isə 8 milyard 19 milyon manata çatıb.

Yanvar-iyun ayları ərzində kredit aktivliyi artıb. Kredit portfeli 3,3 % və ya 375 milyon manat olub. Fiziki şəxslərin cəmi depoziti 6,3 % və ya 477 milyon manat çoxalıb. Daha sabit maliyyələşmə mənbəyi olan əhalinin müddətli əmanətləri ilin ilk yarısı ərzində 9,7% və ya 505 milyon manat artıb.

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bu gün Bakı Fond Birjasında (BFB) Azərbaycan Mərkəzi Bankının qısamüddətli notlarının yerləşdirilməsi üzrə hərrac keçiriləcək.

Qazaxıstanın paytaxtı Astanada Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv dövlətlərin turizm nazirlərinin dördüncü və turizm üzrə işçi qrupun üçüncü iclası keçirilib.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi qurban bayramı ərəfəsində vətəndaşlara və bu sahədə fəaliyyət göstərən şəxslərə dini ayinlərlə yanaşı, həm də müvafiq qanunvericiliyin tələblərinə uyğun heyvan kəsiminin həyata keçirməsini tövsiyə edir.

«Euronews» telekanalının «Postcards» («Açıqcalar») bölümündə yayımlanmış Bakıdakı «Yaşıl bazar»la bağlı süjetdə «Yaşıl bazar»ın müxtəlif ərzaq məhsullarının satıldığı məkan olduğu, həmçinin qurmanların burada istədikləri hər şeyi tapa biləcəkləri bildirilib.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Rəqəmsal ödənişlərdə təhlükəsizlik gücləndiriləcək

*Onlayn ödənişlərin və elektron ticarətin geniş tətbiqi onlayn ödəmələrdə təhlükəsziliyin təmin edilməsini də aktuallaşdırıb.*

«2018-2021-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı»nın əsas prioritetlərindən biri onlayn ödənişlərin aparılması zamanı təhlükəsizliyin təmin edilməsidir. Maliyyə Bazarlarına Nəzarət Palatası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Mərkəzi Bank, Vergilər Nazirliyi, ölkədə fəaliyyət göstərən mobil operatorlar və bu sahəyə aid digər iştirakçılardan ibarət yaradılmış işçi qrup həmin istiqamətdə araşdırma və müvafiq təkliflər hazırlayıb. Onlayn ödəmələrdə «3d security cod» sistemin bank və bütün ödəniş strukturlarında tətbiqinin genişləndirilməsi, etibarlılığın təmin edilməsi nəzərdə tutulur.

Azərbaycan Banklar Assosiasiyasının rəhbəri Zakir Nuriyev bildirib ki, banklarda e-ticarət zamanı vergilərin hesablanması və tutulması üçün proqram təminatı qurulub və artıq bu proses müvafiq qaydalar əsasında tənzimlənir. Bank kartlarının təhlükəsizliyinin təmin edilməsi Maliyyə Bazarlarına Nəzarət Palatası və tərəfindən tənzimlənir.

Bank sahəsi üzrə mütəxəssis Elçin Qədimov hesab edir ki, elektron ticarətin inkişafı internet mağazalarından istifadə edən insanların hesabının etibardan salınması ilə bağlı münaqişələrin sayını artırıb. İndi onlayn maliyyə meydançaları üzrə riskləri minimuma endirmək üçün tədbirlərin artırılmasına ehtiyac var. Bu məqsədlə prosessinq mərkəzləri təhlükəsizliyi və istifadəçilərin rahatlığını prioritet məsələ kimi diqqətdə saxlamalıdır. Çünki bank kartları sahəsində dələduzluq və fırıldaqçılıq halları dünyada ciddi məsələlər sırasındadır. Hazırda ölkəmizdə prossesinq mərkəzləri tərəfindən «PCI DSS» təhlükəsizlik standartlarına cavab verən sistem yaradılıb ki, bu, prossesinq mərkəzi tərəfindən bankların kartlarındakı bütün məlumatların yadda saxlanmasına imkan verir. Azərbaycan banklarının əksəriyyəti artıq «PCI DSS» sertifikatını əldə edib, bu sertifikat aparılan əməliyyatlar barədə məxfi məlumat təhlükəsizliyini təmin edən informasiya strukturunun müdafiə standartlarına uyğunluğunu təsdiq edir.

Mərkəzi Bankın məlumatına görə, hazırda «PCI DSS» texnologiyasının ən son standartlarından olan 3.2 versiyasının tətbiqi üçün banklarla geniş iş aparılır. Bu sistem kartlarla nağdsız qaydada aparılan bütün əməliyyatların təhlükəsizliyinin ən yüksək səviyyədə təmin olunmasına imkan verir. Bununla yanaşı, hazırda əksər banklar plastik kart müştərilərini «3D Secure» təhlükəsizlik sistemi ilə təmin edib. Bundan əlavə, «Azərpoçt» MMC-nin «MasterCard» kart sahibləri internet vasitəsilə həyata keçirdikləri əməliyyatların təhlükəsizliyini təmin etmək məqsədilə bu texnologiyanın tətbiqini reallaşdırıb. Bu sistem dələduzluq hallarından mühafizə olunmaq və onlayn ödənişlərin təhlükəsizləşdirilməsi imkanı verən müasir texnologiyadır. «3D Secure» xidməti bankın bütün növ «Visa» və «MasterCard» plastik kartlarına şamil olunur və öz sahiblərinə həm Azərbaycanda, həm də xarici ölkələrdə onlayn alış-verişlərini təhlükəsiz aparmaq imkanını yaradır. Bu qabaqcıl texnologiyanın iş prinsipi müştərinin yalnız müştəriyə aid olan və kartın üzərində qeyd edilməyən xüsusi «3D» parolu vasitəsilə həyata keçirilir. «3D Secure» parolu olan kartla sahibindən başqa heç bir kəs internetdə ödəmə apara bilməz, çünki xidmətə qoşulmuş kart ilə internetdə ödəniş edərkən, müştərinin mobil telefonuna SMS vasitəsilə birdəfəlik şifrə göndərilir və əməliyyat yalnız həmin şifrə daxil edildikdən sonra həyata keçirilir. Plastik kartları olan vətəndaşlar «3D Secure» xidmətinə qoşulmaqla hesablarındakı vəsaitlərin təhlükəsizliyinə arxayın ola bilərlər.

«Kaspersky Lab» şirkəti də onlayn maliyyə fırıldaqçılığından müdafiə olmaq üçün yeni alətlərin tətbiqi ilə bağlı təkliflərini müvafiq qurumlara təqdim edib. Təkliflərdə onlayn ödəmələr aparan istifadəçinin hesabının etibardan salınmasının və maliyyə fırıldaqçılığının qarşısının alınması ilə bağlı müxtəlif ssenarilər müəyyənləşdirilib. Yeni alətlər internet tranzaksiyalar zamanı maliyyə təhlükəsizliyinin daha aktual tərəfləri üçün həllər seçməyə imkan yaradır.

**ELBRUS**

# Əlavə dəyər vergisi

> Əlavə dəyər vergisi (ƏDV) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir. ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir. Azərbaycan Respublikası ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanan verginin məbləğidir.

### ƏDV ödəyiciləri

ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxs ƏDV-nin ödəyicisidir. Qeydiyyatdan keçən şəxs qeydiyyatın qüvvəyə mindiyi andan etibarən vergi ödəyicisi olur. Qeydiyyata dair ərizə verməli olan, lakin qeydiyyatdan keçməmiş şəxs qeydiyyata dair ərizə vermək öhdəliyinin yarandığı dövrdən sonrakı hesabat dövrünün başlanğıcından etibarən vergi ödəyicisi sayılır.

Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər bu cür idxal malları üzrə ƏDV-nin ödəyiciləri sayılır.

ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən və Vergi Məcəlləsinin 169-cu maddəsinə müvafiq surətdə vergiyə cəlb edilməli olan qeyri-rezident şəxs həmin işlər və ya xidmətlər üzrə vergi ödəyicisi sayılır.

Vergi Məcəlləsinin 137-ci maddəsinə uyğun olaraq hüquqi şəxs yaratmadan göstərilən birgə sahibkarlıq fəaliyyəti ƏDV-nin məqsədləri üçün ayrıca şəxs sayılır.

Aksizli malların istehsalçıları və sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməyən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər ƏDV-nin ödəyiciləri sayılır.

Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən Vergi Məcəlləsinin 218.1-ci maddəsi ilə müəyyən edilmiş hüquqdan istifadə etməyən ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər (bu Məcəllənin 218.4.1-ci, 218.4.2-ci və 218.4.3-cü maddələrində göstərilənlər istisna olmaqla) bu Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 200.000 manatdan artıq olduqda, bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs bu əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

### ƏDV öhdəliyi

Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi, Azərbaycan Respublikası ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı tətbiq edilən ticarət əlavəsi və vergi tutulan idxal vergitutma obyektidir.

Vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur.

ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV-nin bəyannaməsi hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq verilir.

### Hüquqi şərtlər

ƏDV-dən azad olunan əməliyyatlar Vergi Məcəlləsinin 164-cü maddəsi ilə, ƏDV-yə sıfır (0) dərəcəsi ilə cəlb olunan əməliyyatlar isə Məcəllənin 165-ci maddəsi ilə tənzimlənir.

ƏDV-nin məqsədləri üçün vergi tutulan əməliyyatın aparıldığı vaxt Vergi Məcəlləsinin 166-cı maddəsi ilə tənzimlənir. Vergi Məcəlləsinin 166.1-ci maddəsində qeyd olunmuşdur ki, bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır. Mallar (işlər, xidmətlər) təqdim olunduqdan sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə və ödəmə 30 gün ərzində həyata keçirilmirsə, vergi tutulan əməliyyatın aparıldığı vaxt malların (işlərin, xidmətlərin) göndərildiyi və ya təqdim edildiyi vaxt hesab olunur.

ƏDV-nin düzgün hesablanması və vaxtında büdcəyə ödənilməsi üçün, həmçinin bəyannamələrin vergi orqanlarına müəyyən edilmiş müddətlərdə verilməsi üçün vergi ödəyiciləri və onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq, ƏDV-nin tutulması gömrük orqanlarının səlahiyyətinə aid olduqda isə Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Fəxriyyə İKRAMQIZI**

## 2018-ci ilin avqust ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci il üzrə hesablanmış torpaq vergisinin yarısını cari ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
- 2018-ci ilin 3-cü rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələri bu ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**2018-ci ilin iyul ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin avqustun ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyul ayının 20-dən gec olmayaraq notariuslar tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar 2018-ci ilin iyul ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan** vergi cari ilin **avqust ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).
- **Xüsusi notariusların 2018-ci ilin iyul ayı üzrə hesabladığı gəlir vergisi** cari ilin **avqust ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

**Qeyd: 2018-ci il oktyabrın 20-si qeyri-iş gününə təsadüf etdiyi üçün cari ilin 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin son müddəti oktyabrın 22-nə keçirilib.**

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Vergi güzəşti məhsul istehsalını stimullaşdırmaq məqsədi daşıyır

**Kənd təsərrüfatına edilən güzəştlər dövlət büdcəsi üçün itki sayılsa da, ixrac yönümlü məhsulların istehsalı hesabına itirilmiş vəsaitlər kompensasiya olunur.**

Qeyri-neft sektorunun prioritet sahəsi hesab edilən kənd təsərrüfatının inkişafı, məhsul istehsalının və satışının stimullaşdırılması Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir. 1999-cu ildən kənd təsərrüfatı məhsullarının istehsalçıları torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilib. Hazırda ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı ilə (o cümlədən sənaye üsulu ilə) məşğul hüquqi şəxslər mənfəət, əlavə dəyər, sadələşdirilmiş sistem üzrə vergilərdən, o cümlədən həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisindən azaddırlar. Fiziki şəxslər isə bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından əldə olunan gəlirlər üzrə gəlir vergisini, əlavə dəyər və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəmirlər.

### Dövlət fermerlərə dəstək verir

27 noyabr 2001-ci il tarixdə təsdiq edilmiş «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanun kənd təsərrüfatı məhsulları istehsalını artırmaq və sahibkarlığın inkişafını sürətləndirmək məqsədi daşıyır. Güzəştlərin müddətinin 2019-cu ilin yanvarında daha 5 il uzadılacağı gözlənilir.

2016-cı ilin sonunda Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilməklə kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq edilən vergi güzəştlərinin əhatə dairəsi dəqiqləşdirilib.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlara bu sahədə güzəştlərin verilməsi məqsədilə bəzi malların idxalı və onların ölkə daxilində satışı da ƏDV-dən azad edilib. Buraya damazlıq heyvanların idxalı və satışı, toxum və tinglərin idxalı və satışı, mineral gübrələrin, pestisidlərin idxalı və satışı, toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı, kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı, bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı aiddir.

Bununla belə, istehsalçı istehsal etdiyi kənd təsərrüfatı məhsullarından emal məhsulu formalaşdırırsa (məsələn, mal-qaranın kəsilərək ət şəklində satışı, meyvələrin qurudularaq satışı), həmin emal məhsullarına görə ümumi qaydada seçdiyi vergitutma metodundan (mənfəət, gəlir vergisi və ya sadələşdirilmiş vergi) asılı olaraq müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəməlidir. Həmçinin vergi ödəyicisi digər şəxslərdən kənd təsərrüfatı məhsulları alıb satışa çıxarırsa, satışdan əldə etdiyi gəlirlər vergiyə cəlb olunur. Çünki kənd təsərrüfatı məhsullarının tədarük qaydasında alğı-satqısını həyata keçirən şəxslər istehsalçı sayılmır və bu sahə üzrə nəzərdə tutulmuş vergi güzəştləri onlara şamil olunmur.

Göründüyü kimi, bu güzəştlər kənd təsərrüfatı məhsullarının birbaşa istehsalı ilə məşğul olan şəxslərə tətbiq olunur. Məqsəd kənd təsərrüfatı məhsulları istehsalçılarının bu sahəyə marağını artırmaq, ölkədə məhsul bolluğu yaratmaqla ərzaq təhlükəsizliyini təmin etmək, habelə rəqabətə davamlı ixrac yönümlü məhsul istehsalının artırılmasına nail olmaqdır.

### Kənd təsərrüfatı məhsullarına tətbiq edilən vergi güzəştləri fermerlərə nə verir?

Bəri başdan deyək ki, güzəştlər ilk növbədə fermerlərin maliyyə xərclərini əhəmiyyətli dərəcədə azaldır və nəticə etibarilə kənd təsərrüfatının əsaslı şəkildə inkişafını və bu sahəyə investisiya qoyuluşunu stimullaşdırır. Təxmini hesablamalara görə, bu güzəştlər sayəsində indiyədək kənd təsərrüfatı məhsulları istehsalçıları 2 milyard manat civarında vəsaitə qənaət edib. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, bu güzəştlər sayəsində məhsulları istehsalçıları hər il dövlət büdcəsinə orta hesabla 150 milyon manat vergi ödəməkdən azad olunub. Əvəzində kənd təsərrüfatı məhsullarının bütün növlərinin istehsalında artım müşahidə olunur. Son 10 ildə ölkə üzrə taxıl istehsalı 1,3 dəfə, kartof istehsalı 2 dəfə, meyvə-tərəvəz istehsalı 1,6 dəfə, bostan məhsullarının istehsalı 1,7 dəfə, üzüm istehsalı 2,3 dəfə artıb.

### İxrac yönümlü məhsullara tələbat artır

Faktiki olaraq daha çox iri təsərrüfat sahiblərinin karına gələn, fərdi və xırda torpaq sahiblərinə səmərə verən güzəştlər dövlət büdcəsi üçün itki sayılsa da, ölkədə məhsul istehsalının artımı, rəqabətədavamlı ixrac yönümlü məhsulların xarici bazarlara çıxışı ilə itirilmiş vəsaitlər müəyyən qədər kompensasiya oluna bilir.

Yeri gəlmişkən, bu ilin yanvar-iyun ayları ərzində Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 846,5 milyon dollar təşkil edib. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 110,5 milyon dollar və ya 15 faiz artım deməkdir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu 2018-ci ilin birinci yarısında qeyri-neft sektoru üzrə dəyərinə görə ən çox ixrac edilən məhsul pomidor (140 milyon dollar) olub. Ümumiyyətlə, 2018-ci ilin ilk 6 ayı ərzində Azərbaycandan xaricə meyvə-tərəvəz ixracı 276,7 milyon, pambıq ipliyi ixracı 9,9 milyon dollar təşkil edib.

Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarını alan ölkələr arasında birinci yeri Rusiya tutur. Sonrakı yerlərdə Türkiyə (180,1 mln dollar), Gürcüstan (74,1 mln dollar), İsveçrə (69,3 mln dollar), Çin (23,9 mln dollar) və digər ölkələr qərarlaşıb. Bu ilin yanvar-iyun aylarında Azərbaycandan Rusiyaya 846,5 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunub. Azərbaycanın Rusiyadakı ticarət nümayəndəsi Ruslan Əliyev mətbuata açıqlamasında deyib ki, 2018-ci ilin sonunadək şimal qonşumuza məhsul ixracının artması gözlənilir. Artan ixracda meyvə və tərəvəz (xurma, fındıq, pomidor, kartof), pambıq üstün paya malik olacaq.

İxracın daha səmərəli təşkili üçün yaxın zamanlarda Moskva, Sankt-Peterburq, Həştərxan və Yekaterinburqda Azərbaycanın yeni şərab evlərinin açılması nəzərdə tutulur.

**Elxan SALAHOV**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Avropa İttifaqında işsizliyin səviyyəsi aşağı düşür




2018-ci ilin iyun ayında Avropa İttifaqında işsizliyin orta göstəricisi əməkqabiliyyətli əhalinin 8,3 faizini təşkil etmişdir. Bu göstərici cari ilin may ayındakı ilə eynidir, 2017-ci ilin eyni dövrü ilə müqayisədə isə 0,7 faiz aşağıdır.

Yevrostat statistika idarəsinin məlumatına əsasən, ən aşağı işsizlik səviyyəsi Çexiyada (2,4 faiz) və Almaniyada (3,4 faiz), ən yüksək işsizlik səviyyəsi isə Yunanıstanda (20,2 faiz) və İspaniyada (15,2 faiz) qeydə alınmışdır.

İllik işsizlik səviyyəsinin aşağı düşməsində ən böyük göstərici Yunanıstan Kiprində (11 faizdən 8,2 faizə), Portuqaliyada (9,1 faizdən 6,7 faizə), Xorvatiyada (11,1 faizdən 9,2 faizə), Estoniyada (6,8 faizdən 4,9 faizə) və İspaniyada (17 faizdən 15,2 faizə) qeydə alınmışdır.

O da maraqlıdır ki, işsizlik səviyyəsinin ən aşağı olduğu ölkələrdə, məsələn, Almaniyada mənzillərin qiymətində artım müşahidə edilməkdədir. İşsizlik göstəricisinin yüksək olduğu ölkələrdə isə daşınmaz əmlakın qiymətində ucuzlaşma gedir.

# Belçikada jurnalistlərdən illik vergi tutulacaq

Avropa Şurası Belçikada fəaliyyət göstərən kütləvi informasiya vasitələri əməkdaşları üçün 100 avro məbləğində illik yığım müəyyənləşdirmişdir. Brüsseldə planlaşdırılmış sammit üçün akkreditasiya ilə bağlı təlimatda qeyd edilmişdir ki, yığım Avropa İttifaqının sammitlərində iştirak etməyə akkreditasiya alan hər bir belçikalı jurnalistin təmsil etdiyi işəgötürən tərəfindən ödənilməlidir. «KİV təmsilçilərinin Belçika vətəndaşlığı olduqda və ya onlar Belçikada daimi (ildə 183 gündən artıq) yaşadıqda yeni qanun təhlükəsizlik yoxlamasından keçən hər bir əməkdaş üçün 50 avro məbləğində ödəniş nəzərdə tutur. Jurnalistlərin təhlükəsizlik yoxlamasının nəticələri altı ay müddətində etibarlıdır», - sənəddə qeyd edilmişdir.

Bu qayda jurnalistika ictimaiyyəti tərəfindən kəskin tənqidlə qarşılanmışdır. Avropa Komissiyası isə yığımla bağlı qərarı bəyənməmişdir.

# Trampın keçmiş vəkili vergi ödəməməkdə ittiham edilib

Donald Tramp hakimiyyətə gələndən ABŞ vergi sistemində baş verənlər dünyanın iqtisadi xəbərlərinin önündə gəlir. İdxal edilən bəzi məhsullara ABŞ-ın əlavə rüsumlar tətbiq etməsi isə artıq ticarət müharibəsi kimi səciyyələndirilməkdədir. Son günlərdə ABŞ-la bağlı fərqli bir vergi informasiyası da yayılmışdır. Nyu York ştatının Federal prokurorluğu prezidentin keçmiş vəkili Maykl Koenlə bağlı istintaqa başlamışdır: vəkil vergiləri ödəməməkdə şübhəli bilinir. «The Wall Street Journal» qəzetinin yazdığına görə, prokurorluq Koenin sahibi olduğu şirkətin (şirkət taksilərin lisenziyalaşdırılması ilə məşğuldur) vergi bəyannamələrini yoxlayır. Müstəntiqlər istintaqın gedişində vəkilin zəruri olan sənədləri təqdim etmədən kredit alıb-almadığı məsələsinə də aydınlıq gətirəcəklər. Bundan əvvəl isə prokurorluğun Koenlə bağlı Trampın seçkiqabağı kampaniyası ilə əlaqədar bank fırıldağı və maliyyə pozuntusu şübhəsi əsasında istintaq apardığı barədə məlumat yayılmışdı.

# Norveç hökuməti vergi güzəştlərinə yenidən baxıb

Hökumət yenidən baxılaraq təkmilləşdirilmiş büdcə layihəsini açıqlamışdır. Layihədə elektron nəşrlərin əlavə dəyər vergisindən azad olunması, hüquqi şəxslər üçün vergi güzəştlərində dəyişiklik edilməsi, eləcə də xarici işçilər üçün sadələşdirilmiş vergi rejiminin tətbiqi nəzərdə tutulmuşdur.

2019-cu ildən başlayaraq xarici işçilərin gəlir vergisi üzrə vergi çıxılmaları olmadan qeyri-məcburi 25 faizlik hamar tarif rejimi tətbiq olunacaq, hazırda mövcud olan «xarici işçilər üçün xüsusi müavinət» isə ləğv ediləcək. Bundan əlavə, təbii ehtiyatlar sahəsində çalışan şirkətlər üçün qaydaların dəyişdirilməsi də nəzərdə tutulmuşdur. İslahatlara xarici sərmayəçilərə aid dividendlərdən tutulan verginin azaldılması ilə bağlı yeni inzibati qaydaların tətbiq edilməsi də daxildir.

İşəgötürənlərə aid dəyişikliklər təbii vəsaitlər üçün vergitutma qaydalarının dəyişdirilməsinə yönəldilmişdir. Yığım vergiləri ilə bağlı qaydalarda dəyişiklik edilmişdir, pivəbişirmə və maralçılıq təsərrüfatı sahələrinə isə yeni vergi güzəştləri verilmişdir.




# BVF: ABŞ-ın vergi islahatı sahibkarların hamısı üçün sərfəli deyil

Beynəlxalq Valyuta Fondunun (BVF) açıqlamasında qeyd edilmişdir ki, ABŞ-ın apardığı son vergi islahatları varlıların hamısı üçün mütənasib imkanlar yaratmır. Fond aşağı gəlirli vergi ödəyicilərinə daha böyük dəstək göstərilməsini və dolayı vergilərin dərəcələrinin artırılmasını tövsiyə etmişdir.

BVF-nin tövsiyələrinə əsasən, ABŞ-da şəxsi və işgüzar vergi mühiti daha sadə və vəziyyəti az təhrif edən olmalıdır, vergi dərəcələri aşağı salınmalı, güzəştlər isə azaldılmalıdır. Vergi sisteminin yenidən tərtib olunması işçi qüvvəsinin iştirakının artırılmasına, gəlirlərin qütbləşdirilməsinin yumşaldılmasına, eləcə də aşağı və orta gəlirli ailələrin dəstəklənməsinə yönəldilməlidir. Vergi islahatı ortamüddətli gələcək üçün gəlirlərin artırılmasını diqqətdə saxlamalıdır. Vergi yükü isə ümumi daxili məhsula münasibətdə azaldılmalı deyil, əvəz edilməlidir.

Fondun açıqlamasında qeyd edilmişdir ki, ABŞ dövləti vergi islahatı aparmalı, vergi dərəcələrinin aşağı salınmasına və vergi güzəştlərinin azaldılmasına xüsusi diqqət yetirməlidir, mənfəət vergisinin azalması sayəsində yaranan büdcə boşluğunun maliyyələşdirilməsi üçünsə dolayı vergilərə, məsələn, federal səviyyədə istehlak vergisi tətbiq etməyə, kömür üçün geniş miqyasda vergi tutmağa, eləcə də qaz üçün federal verginin həcmini artırmağa üstünlük verməlidir. Fond ekspertlərinin rəyinə görə, birbaşa və dolayı vergilərə bu cür yanaşma uzunmüddətli iqtisadi artım üçün müsbət zəmin yarada bilər. Açıqlamada bildirilmişdir: «Amerikanın xaricdə yerləşən transmilli fondlarının repatriasiyası üçün vergi tutmaq məsələsini gündəliyə gətirməyə dəyər, lakin bunu mənfəətin yerdəyişməsi sferasını məhdudlaşdırmaq üçün vergitutma səviyyəsi aşağı olan yurisdiksiyalarda əldə edilmiş mənfəətdən tutulan minimal vergi ilə uyğunlaşdırmaq lazımdır».

Bununla yanaşı, BVF əhalinin az və orta gəlirli qrupları üçün vergi güzəştlərinin verilməsi ilə bağlı təklifləri bəyəndiyini də bildirmişdir.

# Gürcüstanda vergi daxilolmaları proqnozu üstələyib

Gürcüstanın maliyyə naziri Nikolaz Qoqua bildirmişdir ki, bu ilin ilk yarısında büdcəyə vergi daxilolmaları proqnozdan 163 milyon lari (113,43 milyon manat) çox olmuşdur. «Biz əminik ki, iyulda da nəticələr gözlənildiyindən artıq olacaq və bu göstərici daha da böyüyəcək», - maliyyə naziri televiziya müsahibəsində demişdir.

Qeyd edilmişdir ki, bu şəraitdə hökumət, planlaşdırıldığı kimi, artıq ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) qaytarılmasını davam etdirəcək. Onun sözlərinə görə, artıq 238 milyon lari (165,63 milyon manat) məbləğində ƏDV qaytarılmışdır.

Gürcüstan Maliyyə Nazirliyinin saytındakı məlumata əsasən, ilin ilk yarısı üçün vergi daxilolmalarının 4,4 milyard lari (3,06 milyard manat) olması planlaşdırılmışdı. Bütün il ərzində isə bu göstəricinin 9,5 milyard lari (təxminən 6,61milyard manat) olması planlaşdırılmışdır.

# Rusiya 2,7 milyon vətəndaşın ölkədən çıxışına qadağa qoyub

Rusiyanın Məhkəmə Pristavları Federal Xidməti 2018-ci ilin ilk yarısı üçün hesabatını açıqlamışdır. Hesabata əsasən, yanvar-iyun ayları ərzində vergi borclarına görə 2,7 milyon vətəndaşın ölkədən çıxmasının qarşısı alınmışdır. Bu rəqəm bütövlükdə 2016-cı ilin göstəricisi ilə müqayisədə çoxdur - inişil cəmi 2,3 milyon vətəndaşın ölkədən çıxmasına qadağa qoyulmuşdu. Belə görünür ki, bu il ölkədən çıxışına məhdudiyyət qoyulmuş vətəndaşların sayı keçənilkindən çox olacaq: ötən il bu göstərici 3,4 milyon nəfər idi.

Altı ay ərzində geri alınmış vergi borcunun məbləği isə 321 milyard rubldan (3,88 milyard manat) artıq olmuşdur. Bununla belə, yol cərimələrinin məbləğində azalma qeydə alınmışdır, pristavlar yol hərəkəti qaydalarını pozanlardan cəmi 6,2 milyard rubl (160 milyon manat) cərimə yığa bilmişlər (bu, eyni dövr ərzində məcburi alınmış alimentin məbləğinə yaxındır).

Pristavların təqdim etdiyi statistikaya əsasən, bu, son dərəcə təsirli tədbirdir, ilin ilk altı ayı ərzində ölkədən çıxışına qadağa qoyulmuş vətəndaşlar 31 milyard rubl (800 milyon manat) vergi borcunu büdcəyə ödəmişlər (2017-ci ildə isə bütün il üzrə bundan az - 30 milyard rublun büdcəyə ödənilməsinə nail olunmuşdu).

krossvord




**Yuxarıdan aşağı:** 1.Qəbələ rayonunda kənd; 2.Turistlərin istirahəti və qalıb gecələməsi üçün lazımi şeylərlə təchiz edilmiş yer; 3.Şərqdə yazılı ədəbiyyatın geniş yayılmış şeir janrlarından biri; 4.Qərbi Avropada zadəgan titulu; 5.Təsviri sənətdə müharibə və hərbi həyat mövzularına həsr olunan janr *(bax şəklə)*; 6.Nəzəri fizikanın bir çox sahələrinə fundamental elmi töhfələr bəxş etmiş sovet fiziki. Bakıda küçə; 9.Üçüncü şəxs tərəfindən vekselin üz və ya arxa, yaxud vekselə əlavə olunmuş vərəqdə imza ilə təsbit edilən, vekselin ödənilməsinə görə cavabdehliyi təsdiq edən zəmanət; 13.Bərli-bəzəkli hökmdar oturacağı; 15.Yunan mifologiyasında ikinci nəsil tanrısı. Həmçinin, ABŞ-ın kosmik gəmisi; 16.Respublikamızın Xocavənd rayonunda kənd; 17.ABŞ-ın Pensilvaniya ştatında şəhər; 18.Qədim kart oyunu; 20.Ötən əsrin 70-ci illərinin əvvəllərində yaranmış rəqs musiqisinin bir növüdür; 21.Kanadada göl.

**Soldan sağa:** 1.Birjada faktiki vəziyyətdən asılı olaraq, qanunvericilik normaları daxilində məhsul, xidmət, qiymətli kağızlar və valyutaların qiymətlərinin/məzənnələrinin müəyyən edilməsi; 5.Güclü şəfaverici təsiri olan təbii qida; 7.Opera müğənnisi (lirik tenor), aktyor, rejissor, pedaqoq, teatr xadimi, Azərbaycanın xalq artisti; 8.Alkanlar sinfinə daxil olan üzvi birləşmə; 10.Yer kürəsində və ya dünyanın konkret hansısa hissəsində daima yenidən istehsal nəticəsində yenilənən və yaşayan insanların cəmi; 11.Hekayənin bir növü; 12.Ukraynada kurort-şəhər; 14.«Nəsimi» filmində Şəms obrazını canlandıran Azərbaycan kinoaktrisası; 19.Məhsul, mal, iş və ya xidmətlər satışından təşkilatın, müəssisələrin və sahibkarların aldığı pul vəsaiti; 21.Xırda alver, cürbəcür arayışlar vermək və s. üçün kiçik tikili, pavilyon; 22.Təhlükə imkanı, ola biləcək təhlükə, qorxulu iş; 23.M.P.Vaqifin şeiri; 24.Yaponiyada tarixi vilayət; 25.Badam və ya inək südündən, şəkər və jelatindən hazırlanan soyuq desert.


***Malazgird döyüşü.*** *Səlcuqlar və Bizans arasında 1071-ci il avqustun 26-da baş verən savaş.*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Amfora; 2.Potsdam; 3.İldan; 4.Uroloq; 5.Kadet; 6.Naqano; 9.Beko; 13.Anar *(Məmmədxanov)*; 15.Bobsley; 16.Sezann *(Pol)*; 17.Vandal; 18.Brınza; 20.Tarif; 21.Şekel. **Soldan sağa:** 1.Amplituda; 5.Kin; 7.Fotodiod; 8.Adaq; 10.Roden; 11.Oberton; 12.Əmrah *(İpək)*; 14.Hobbi; 19.Estrada; 21.Şubar; 22.Aqra; 23.Odekolon; 24.Nəf; 25.Balalayka.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatı və Bakı birinciliyinə yekun vurulub

Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatı və Bakı birinciliyində gənc gimnastlar (2003-2005-ci il təvəllüdlü) arasında halqa, top, gürzlər və lentlə hərəkətlərdə fərdi proqram üzrə qalib və mükafatçıların adları açıqlanıb.

Halqa ilə yarışlarda «Ocaq Sport» klubunun yetirmələri olan Yelizaveta Luzan 17,200 xalla birinci, Nərminə Səmədova 17 xalla ikinci, Arzu Cəlilova isə 14,950 xalla üçüncü yerdə qərarlaşıb. Topla hərəkətlərdə də «Ocaq Sport» klubunun həmin gimnastları fərqləniblər. Lakin bu dəfə Arzu Cəlilova (17,650 xal) qızıl, Yelizaveta Luzan (17,450 xal) gümüş, Nərminə Səmədova (17,150 xal) isə bürünc medala sahib olub. Gürzlərlə yarışlarda Nərminə Səmədova 17,250 xal, Arzu Cəlilova 16,650 xal (hər ikisi «Ocaq Sport» klubu), Dərya Farşbafşəhriyari (Bakı Gimnastika Məktəbi) isə 15,700 xal toplayaraq müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri bölüşüblər. Lentlə hərəkətlərdə də «Ocaq Sport» klubunun yetirmələri fəxri kürsünün ilk üç pilləsində qərarlaşıblar. Bir-birilərini cüzi xal fərqi ilə üstələyən Nərmin Bayramova (15,150 xal), Yelizaveta Luzan (15,100 xal) və Arzu Cəlilova (15 xal) ilk üçlüyü qapayıblar.




Beləliklə Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə 25-ci Azərbaycan çempionatı və Bakı birinciliyinə yekun vurulub.

# Atletimiz Avropa çempionatında gümüş medal qazanıb

**Azərbaycan yığması Berlində keçirilmiş atletika üzrə Avropa çempionatında ilk medalına sahib olub.**

Üçtəkanla tullanma yarışının finalında idmançılarımızdan Aleksis Kopello gümüş medala layiq görülüb. O, 16,93 metr nəticə göstərib. Portuqaliyalı Olimpiya və dünya çempionu Nelson Evora 17,10 metr göstərici ilə Avropa çempionu adını qazanıb. Yunanıstanlı atlet Dimitrios Tsiamis 16,78 metr göstərici ilə bürünc medal alıb. Azərbaycanın digər idmançısı Nazim Babayev isə 16,76 metr nəticə ilə yunanıstanlı rəqibindən cəmi iki santimetr geri qalaraq dördüncü sırada qərarlaşıb.




Xatırladaq ki, atletlərimiz turnirdə məşqçilər Ziyad Xəlfəyevin və Artyom Rubankonun rəhbərliyi ilə mübarizə aparıblar.

# Ronaldunun cəzasına endirim edilib

Bu ilin vergi xəbərləri arasında dünyanın ən məşhur futbol ulduzlarından biri olan Kriştianu Ronaldunun vergidən yayınması diqqət mərkəzində oldu. İlin əvvəlində futbolçunu iki il həbs cəzası gözlədiyi xəbəri yayılmışdı. Bundan sonra həbs cəzasını əvəz edəcək müxtəlif pul məbləğləri gündəliyə gətirildi. Axır vaxtlar KİV Ronaldunun İspaniya vergi orqanlarına 18,8 milyon avro pul ödəməyə razılıq verdiyini yazmışdı.

İspaniyanın vergi orqanlarına istinadla yayılan ən son məlumatlarda isə bildirilir ki, vergi orqanı iki milyon avrodan artıq vəsaitin Ronalduya qaytarılması barədə qərar çıxarmışdır - bu vəsaiti futbolçu artıq ƏDV kimi ödəyib.

Beləliklə, vergi ödəməkdən yayındığına görə Ronaldunun ödəcəyəcəyi cərimənin məbləği 13,4 milyon avro müəyyənləşdirilib. Hazırda İtaliyanın «Yuventus» klubunda oynayan portuqaliyalı futbol ulduzu məhkəmə qarşısında 2011-2014-cü illər arasında imic hüquqlarından əldə etdiyi gəlirlərə görə ödəməli olduğu vergini ödəməkdən yayındığını etiraf edib.




### Ramil Quliyev Avropa çempionu oldu

Türkiyə millisinin əslən azərbaycanlı sprinteri Ramil Quliyev Berlində keçirilən atletika üzrə Avropa çempionatında qızıl medal qazanıb. 28 yaşlı idmançı 200 metr məsafəyə qaçışda bütün rəqiblərini qabaqlayıb və finişə 19,76 saniyəyə çatıb. Azərbaycanlı atlet həmçinin 4x100 məsafəyə estafetdə gümüş medala da sahib olub.

# Gimnastlarımızın Avropa çempionatında çıxışı

Böyük Britaniyanın Qlazqo şəhərində keçirilən idman gimnastikası üzrə Avropa çempionatına yekun vurulub. Avropanın 37 ölkəsindən 151 böyük, 158 gənc kişi gimnastın qatıldığı mötəbər turnirdə Azərbaycan gimnastları da iştirak ediblər.

Ölkəmizi böyüklər proqramında Murad Ağarzayev, Dari Morozov, İvan Tixonov, Nikita Simonov, gənclər proqramında isə Ağamurad Qəhrəmanov, Səməd Məmmədli, Cavidan Babayev, Ramin Dəmirov və Rüstəm Əhməd təmsil ediblər.

Gimnastlarımızdan ən yaxşı nəticəni gənclər arasında mübarizə aparan Cavidan Babayev göstərib. O, halqalarla çıxışda final mərhələsinə adlamağı bacarıb. Bununla da ölkəmiz ilk dəfə olaraq, qitə birinciliyinin gənclər arasında final mərhələsində təmsil edilib. İdmançımız əsas mərhələdəki çıxışı ilə turniri yeddinci yerdə başa vurub.

# Azərbaycanın qadın voleybol yığmasının heyəti açıqlanıb

Türkiyənin Antalya şəhərində keçiriləcək «Gloria Cup» beynəlxalq turnirində Azərbaycanı təmsil edəcək qadın voleybol yığmasının heyəti müəyyənləşib. Ceyran İmanova, Yana Əzimova, Anastasiya Qurbanova, Mariya Kirilyuk, Odina Əliyeva, Ayşən Əbdüləzimova, Alyona Həsənova, Yelizaveta Səmədova, Natalya Məmmədova, Yana Kulan, Katerina Jidkova, Valeriya Məmmədova, Kristina Yaqubova, Aynur İmanova, Yuliya Kərimova, Polina Rəhimova, Şəfaqət Alışanova, Bəyaz Əliyeva, Marqarita Əzizova, Kseniya Pavlenko və Anastasiya Bessonova yığmamızın tərkibində ölkəmizi təmsil edəcəklər.

Avqustun 23-də başlayacaq turnir dünya çempionatı ərəfəsində məşq toplanışları keçirən Azərbaycan yığması üçün hazırlıq xarakteri daşıyır.

## mozaika

tarix

# Qədim kurqanlar tapılıb

Yardımlı rayonunun Arvana kəndi yaxınlığındakı Komanı yaylaqlarında, dəniz səviyyəsindən 2100 metr yüksəklikdə tunc dövrünün son mərhələsinə aid yeni kurqanların arxeoloji tədqiqinə başlanılıb.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Anar Ağalarzadənin rəhbərlik etdiyi Yardımlı arxeoloji ekspedisiyası tədqiqat planına uyğun olaraq seçdiyi müxtəlif ölçülü Komanı kurqanlarında arxeoloji qazıntılar aparır.



Ətrafı kromlex düzümlü kurqanlardan birinin qazıntısı zamanı tunc dövrünün xarakterik adətlərindən biri olan parçalanaraq dəfn edilmiş insan skeleti aşkar olunub. İnsan skeletinin yanından tapılmış bir ədəd boz-qara rəngli keramika fraqmenti dəfn abidəsinin son tunc dovrünə aid olduğunu söyləməyə imkan verir. Daha dəqiq tarix insan sümükləri nümunələri üzərində aparılacaq radiokarbon analizlərin nəticəsindən sonra bilinəcək.

Xatırladaq ki, bu tip dəfn abidəsini XIX əsrin sonlarında fransız arxeoloqu Jak de Morqan müasir Lerik rayonu ərazisində tapmışdı. Eyni zamanda, bu tipli kurqanlar qonşu İran İslam Respublikasının Gilan vilayətinin dağlıq ərazisindəki həmdövr abidələrindən də məlumdur.

A.Ağalarzadə bildirib ki, bu arxeoloji tapıntılar Azərbaycan tarixinin qədim dövrünə aid zəngin maddi mədəniyyət nümunələridir. Sistemli olaraq bölgədə aparılacaq kompleks arxeoloji tədqiqatlar nəticəsində ərazinin dağlıq hissəsinin qədim dövr maldar cəmiyyətləri tərəfindən mənimsənilərək məskunlaşması məsələsinə aydınlıq gətiriləcək.

arxeologiya

# Qədim Roma dövrünə aid kitabxana

Almaniyada avtomobilsaxlama meydançalarından birində aparılan qazıntılar zamanı qədim Roma dövrünə aid kitabxana aşkar edilib.

«The Guardian» qəzetinin məlumatına görə, Almaniyanın Köln şəhərinin mərkəzində yerləşən bu kitabxana Roma imperiyasının şimal-qərb əyalətlərinin ən qədim kitabxanası hesab olunur. Qədim tikilinin divarlarında 20 min papirus saxlanması üçün oyuqlar mövcuddur.

Köln şəhərinin əsası eramızın 50-ci ilində romalılar tərəfindən qoyulub. O zaman Roma imperiyasının bu əyaləti «Germania» adlanırdı. Arxeoloqların qənaətinə görə, kitabxana eramızın II əsrində - müasir Türkiyə ərazisində yerləşən Efes kitabxanası ilə eyni vaxtda tikilib. Kölndəki Roma Muzeyinin əməkdaşı Dirk Şmit bildirib ki, hər iki kitabxananın binası ictimai mərkəz kimi də istifadə olunub. Belə ki, imperiyanın bu əyalətlərdəki hakimiyyət nümayəndələri burada mütaliə ilə yanaşı, məsləhətləşmələr də aparıblar.



Bu tapıntının qiymətli olduğunu nəzərə alan yerli hökumət avtomobil parkının yenidən qurulması zamanı onun qorunması üzrə layihə hazırlayıb. Belə ki, qazılmış ərazinin üzəri xüsusi şüşə ilə örtüləcək və buraya gələnlər yuxarıdan qədim kitabxananın qalıqlarını görə biləcəklər.

maraqlı

# 27 il əmr gözləyib



İkinci Dünya müharibəsi başa çatdıqdan 27 il sonra Quam adasında qamışlıqda gizlənmiş və hələ də komandirinin əmrini gözləyən yapon əsgəri tapılıb.

1944-cü ilin iyulunda ABŞ və Yaponiya qoşunları arasında Quam adasında amansız döyüşlər zamanı yapon ordusunun əsgəri Şoiçi Yokoi cəngəllikdəki qamışlıqda qazdığı mağarada gizlənib. Çoxlu itkilər verən yapon ordusu adanı tərk etdikdən sonra amerikan əsgərləri gizlənən düşmən hərbçilərini əsir götürüblər. Onların cəngəlliyi axtardığı vaxt Soiçi Yokoi gizləndiyi mağaranı bambuk ağacı ilə örtüb və 27 il çayın kənarındakı bu sığınacaqda komandirinin əmrini gözləyib. Nəhayət, 1972-ci ildə çayda balıq tutduğu zaman amerikalı ovçulara rast gələn yapon əsgəri qaçmağa başlayıb və qarşıdakı polis məntəqəsində onu həbs etmək istəyən silahlı qanun keşikçilərinə müqavimət göstərib. Amerikan polisi tərəfindən həbs olunduğu zaman əsir düşmək istəmədiyi üçün öldürülməsini xahiş edən Yokoi tezliklə Yaponiyaya göndərilib və burada qəhrəman kimi qarşılanıb. Yapon əsgəri onu qarşılayan həmvətənlərinə deyib: «Mən sağ qayıtdığım üçün utanıram».




İntizamlı əsgər yaponlar üçün qəhrəmanlıq, şərəf və imperatora sədaqət rəmzinə çevrilib. 1972-ci ildə Yaponiya İmperatorunun qəbulunda olan Yokoi deyib: «Mən sizə lazımınca xidmət edə bilmədiyim üçün dərin təəssüf hissi keçirirəm. Artıq dünya çox dəyişib, amma mənim sizə xidmət etmək niyyətim heç bir zaman dəyişməyəcək».

Həyatının qalan hissəsini rifah içərisində keçirən intizamlı əsgər 1997-ci ildə - 82 yaşında dünyasını dəyişib.

araşdırma

# Qlobal istiləşmənin səbəbi

Priston Universitetindən (ABŞ) və Maks Plank adına Kimya İnstitutundan (Almaniya) bir qrup alimin gəldiyi nəticəyə görə, son 11 min ildə qlobal istiləşmə Cənub okeanı sularından karbon qazının ayrılması ilə əlaqədardır və insan fəaliyyətinin doğurduğu iqlim dəyişikliyi ilə bağlı deyil. AZƏRTAC xəbər verir ki, bu məlumat «Phys.org» nəşrində yer alıb.



Sonuncu buzlaq dövrü təxminən eramızdan əvvəl 9700-9600-cü illərdə başa çatıb. Bundan sonra buzlaq dövrləri arası holosen dövrü başlanıb. Hesab edilir ki, orta temperaturun ən yüksək həddə (indikindən 1-3 °C çox) çatmış olduğu iqlim optimumu 9-5 min il əvvəlki dövrdə davam edib. Bu tsikl, digər amillərdən başqa, atmosferdə karbon qazının olması ilə şərtlənir ki, bu da öz növbəsində Dünya okeanı və Yerin hava təbəqəsinin qarşılıqlı təsirindən asılıdır.

Alimlər buzlaq dövründən buzlaq dövrləri arasına keçidi parnik qazlarının səviyyəsinin artması ilə əlaqələndirirlər. Lakin bu hadisənin dəqiq səbəbi məlum deyil.

Tədqiqatçılar Cənub okeanında baş vermiş prosesləri müəyyənləşdirmək və modelləşdirmək məqsədilə holosen dövrünə aid diatom yosunların və foraminiferin daşlaşmış qalıqlarında azot molekulunu təhlil ediblər. Məlumdur ki, Antarktidanı əhatə edən Cənub okeanı irimiqyaslı apvellinqin - dərinlikdəki suyun səthə qalxmasının müşahidə edildiyi regiondur. Burada dəniz suyunda həll olunmuş karbon qazı atmosferə buraxılır.

Alimlər aşkar ediblər ki, 11 min il əvvəl güclənmiş apvellinq isti iqlimin sabitləşməsinə səbəb olub. Bu, atmosferdə karbon qatılığının kiçik artımı ilə müşayiət edilib. Bu artım yüksək orta temperaturun saxlanmasında mühüm rol oynayıb və onun tədricən aşağı düşməsinin qarşısını alıb.

**Müdriklər deyib ki...**

***«Ağıllı insanlar cəmiyyətin qan damarıdır».***

*Daniel Defo (1660-1731)*

